www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  13 iyun 2017-ci il  Çərşənbə axşamı  № 126 (6740)  Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda adam oğurlayan dəstə saxlanıldı

yazısı səh.2-də

**Gündəm**

### Uşaqların kütləvi zəhərlənməsinin səbəbi qorxulu virus imiş




Aidiyyəti rəsmi qurumlar və şəxslər təhlükəli infeksiyanın su ilə yayıldığını bildirir; "Azərsu" isə razılaşmır...

yazısı səh.4-də

### Yasamalın icra başçısı yanan yataqxanadan danışdı

yazısı səh.6-da

### Limonovun Qarabağa qanunsuz səfərinə Azərbaycandan sərt reaksiyalar

yazısı səh.12-də

### "Dünya həm siyasi, həm iqtisadi cəhətdən çox narahat günlərini yaşayacaq" - politoloq

yazısı səh.10-da

### Qətlə görə həbs edilən şəxs azadlığa buraxıldı

yazısı səh.14-də

### Bakının adrenalin həvəskarları - baykerlik barədə bilmədiklərimiz

yazısı səh.15-də

### Leysan yağacaq, dolu düşəcək, çaylarda sular artacaq

yazısı səh.14-də

### "OMON"çu Elçin Əmiraslanov aclığı dayandırdı

yazısı səh.4-də

### Uzun və sağlam həyatın əsas sirri - az yemək

yazısı səh.13-də

**Ramazan ayının 18-ci günü**

İftar 20. 28. İmsaq 03.09-dək (QMİ)

18-ci günün duası: "İlahi, bu orucluq ayının səhərlərinin bərəkətini mənə düşündür! Belə bir gündə Ramazan ayının işıq və nuru ilə qəlbimi işıqlandır! Mənim bütün bədən üzvlərimi bu ayda olan gözəl əməlləri yerinə yetirməyə müvəffəq et! Ey, qəlbləri nurlandıran Allah!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

Bu gün 1-ci Qədr gecəsidir

## Ermənistan "oyun"dan çıxarılır - mühüm gəlişmə

# DÜŞMƏNİN NAXÇIVAN TƏLAŞI - AZƏRBAYCAN VƏ TÜRKİYƏ ORDULARI YENİDƏN BİRLİKDƏ

İki qardaş ölkənin silahlı qüvvələri bir ayda ikinci dəfə birgə təlimlərə başladı; **erməni ekspert:** "Moskva bizim maraqlar hesabına Bakı və Ankara ilə anlaşa bilər..."




yazısı səh.7-də

## Ziya Məmmədovun Eldar Mahmudova hər ay 1 milyon verməsinin sirri açılır

Beynəlxalq qalmaqala adı qarışan sabiq nazir bu dəfə "sudan quru" çıxmaya bilər

yazısı səh.5-də



Mehmet Mutlu

### Türkiyənin tanınmış iş adamı "Yeni Müsavat"a ilginc açıqlamalar verdi

yazısı səh. 8 və 9-da



*Fərəc Quliyev:*

### "İqtidar daxilində pozucu, sabotajla məşğul olan qüvvələrin olması istisna deyil"

yazısı səh.3-də



*Elmar Məmmədyarov:*

### ""Status-kvo"nu dəyişməyin vaxtı çatıb"

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 126 (6740) 13 iyun 2017



# Prezident Xırdalan-Binəqədi-Balaxanı avtomobil yolunun tikintisinə 5,3 milyon manat ayırdı

**Prezident İlham Əliyev Xırdalan-Binəqədi-Balaxanı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, 188 min nəfərin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Xırdalan-Binəqədi-Balaxanı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,3 milyon (beş milyon üç yüz min) manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.




# Qəzalı vəziyyətdə olan məktəblər modul tipli məktəblərlə əvəzlənəcək

**Azərbaycanda ilk dəfə olaraq, 44 rayonu əhatə edən az-komplektli və qəzalı vəziyyətdəki kənd məktəbləri modul tipli məktəblərlə əvəzlənir.**

Təhsil Nazirliyindən APA-ya bildirilib ki, pilot layihə çərçivəsində Göyçay, İsmayıllı və Lənkəranda 3 məktəb quraşdırılaraq, təhvil verilib. 2017/2018-ci illərdə 232 modul tipli məktəbin də quraşdırılması planlaşdırılıb. Bu ilin sonunadək isə 100 məktəb təhvil veriləcək.

Hazırda 25 rayonda 41 məktəbin quraşdırılmasına başlanılıb. Bu məktəblərin üstünlükləri azməsrəfli olması ilə yanaşı, qısa müddətdə istənilən relyefdə quraşdırılması, asan daşınması, şagirdlərin sayına uyğun olaraq sinif otaqlarının rahatlıqla azaldılıb-artırılmasıdır.

Son 13 ildə ölkədə məktəblərin 70 faizi yenidən tikilib və ya əsaslı təmir olunub. 2016/2017-ci tədris ilində ölkə üzrə 29 yeni məktəb, o cümlədən Təhsil Nazirliyinin sifarişi ilə 7 məktəb istifadəyə verilib. 101 məktəbdə əsaslı və 384 məktəbdə təmir işləri aparılıb. 17 təhsil müəssisəsində təmir-tikinti işləri davam edir. 2017/2018-ci tədris ilinə qədər Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsinin sifarişi ilə 7 təhsil müəssisəsində təmir-tikinti işlərinin başa çatdırılması nəzərdə tutulub.

Təhsil sferasında maliyyə və inzibati resursların idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə 15 ərazi maliyyə hesablaşma mərkəzi yaradılıb. Yeni mexanizmin tətbiqi regionlarda yerləşən 4.134 təhsil müəssisəsini, o cümlədən 3875 ümumtəhsil və 259 məktəbdənkənar təhsil müəssisəsini və həmin təhsil müəssisələrində çalışan 175 minə yaxın təhsil işçisini əhatə edib.


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# ""Status-kvo"nu dəyişməyin vaxtı çatıb"

## Elmar Məmmədyarov: "Dağlıq Qarabağ münaqişəsi BMT qətnamələri əsasında həll olunmalıdır"

**"Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövcud sənəd üzərində danışıqları davam etdiririk".**



APA-nın məlumatına görə, bu sözləri xarici işlər naziri Elmar Məmmədyarov Estoniyanın xarici işlər naziri Sven Mikserlə görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

O bildirib ki, Sankt-Peterburq görüşündə, aprelin 29-da Moskvada görüşündə də eyni sənəd üzərində danışıqlar aparılıb: "Həmin sənədə əsasən münaqişənin həlli istiqamətdə irəliləməyin yollarını müzakirə etdik. Biz istəyirik ki, danışıqlar substantiv olsun. Azərbaycanın mövqeyi bəllidir. "Status-kvo"nu dəyişməyin vaxtı çatıb. Prezidentlər və həmsədrlər də deyir ki, "status-kvo" qəbuledilməzdir".

"Dağlıq Qarabağ münaqişəsi BMT-nin qətnamələri əsasında həll edilməlidir" - deyə, Elmar Məmmədyarov mətbuat konfransında bildirib.

**O, münaqişə və danışıqlar prosesi barədə eston həmkarına məlumat verdiyini söyləyib:** "BMT qətnamələri Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edir. Bu sənədlərdə göstərilən suverenlik məsələsi bizim ortaq marağımızdır. Bütün münaqişələr beynəlxalq norma və prinsiplər əsasında həll olunmalı, BMT üzvü olan bütün ölkələr bunlara əməl etməlidir".

"Avropa İttifaqı ilə əməkdaşlıq bizim üçün vacib məsələlərdən biridir" - deyə Elmar Məmmədyarov mətbuat konfransında qeyd edib. O bildirib ki, tərəflər bu əməkdaşlığı inkişaf etdirmək istiqamətində doğru yoldadır.

Nazirin sözlərinə görə, bu həftə Aİ-nin qonşuluq siyasəti və genişləndirmə üzrə komissarı Yohannes Han Azərbaycana gəlir və o, "Şərq tərəfdaşlığı" sammiti çərçivəsində Azərbaycanın hazırlığını nəzərdən keçirəcək, öz fikirlərini bölüşəcək.

"Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli yoxdur".

APA-nın məlumatına görə, bu sözləri isə Estoniyanın xarici işlər naziri Sven Mikser Bakıda Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

S. Mikser bildirib ki, münaqişənin sülh yolu ilə həlli tərəflərin maraqlarına xidmət edir.



# Rusiyada mitinqlər başladı, Aleksey Navalnı həbs olundu

**Rusiyada korrupsiya əleyhinə mitinqlər başlayıb. Mitinqin əsas təşkilatçısı olan Aleksey Navalnı öz evinin qarşısında həbs edilib.**

Axar.az xəbər verir ki, bu barədə informasiyanı Aleksey Navalnının həyat yoldaşı Yuliya öz twitter səhifəsində paylaşıb. O, Navalnının mitinqinin təxirə salınmadığını bildirib.

Navalnının həbsi ilə yanaşı onun rəhbəri olduğu Korrupsiya ilə Mübarizə Fonduna qarşı da təzyiqlər artıb. Fondun ofisinə verilən elektrik enerjisi dayandırılıb. Bununla bərabər internet əlaqəsində də problemlər yaranıb.

Rusiya rəsmiləri isə Navalnını provokator adlandırıblar. Bu iddianı, xüsusilə Federal Təhlükəsizlik Xidmətinin rəhbəri Aleksandr Bortnikov və daxili işlər naziri Vladimir Kolokolçev səsləndirib.

Qeyd edək ki, dünən axşam Aleksey Navalnı Moskvanın Saxarov prospektində korrupsiyaya qarşı keçiriləcək mitinqlə bağlı hakimiyyətlə razılığa gətməyəcəyini bildirmişdi.



# Bakıda adam oğurluğu ilə məşğul olan dəstə ələ keçdi

**Bakıda adam oğurluğu ilə məşğul olan dəstə zərərsizləşdirilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, Sabunçu Rayon Polis İdarəsi (RPİ) 12-ci Polis Bölməsinə (PB) müraciət edən Qazax rayon sakini İsmayıl Umudov əvvəldən tanımadığı şəxslərin onu oğurlayaq bir gecə naməlum evdə saxladıqları, orada döyərək 90 manatını və 1400 türk lirəsini quldurluq yolu ilə aldıqları barədə məlumat verib.**

Bölmə əməkdaşları tərəfindən dərhal həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən Masallı rayon sakinləri Cavid İbrahimov, onun qardaşı Valid, Aqil Nüsrətli, Xəzər rayon sakinləri Kənan Cəlali, Cavid Fərzəliyev və Ağsu rayon sakini Amil Quliyev saxlanılıblar.

Araşdırma zamanı məlum olub ki, zərərçəkən İsmayıl Umudov Türkiyədə yaşayır və o, hadisədən bir neçə gün əvvəl mobil telefon vasitəsilə dəstə üzvü C.İbrahimovun ailə üzvlərindən biri ilə tanış olub. Bundan xəbər tutandan sonra isə C.İbrahimov İ.Umudova sms göndərərək onu Bakıya Buzovna qəsəbəsinə görüşə dəvət edib. Qeyd edilən ünvanda görüşə gələn İ.Umudovu C.İbrahimovla bərabər qardaşı və adları çəkilən 4 dostu qarşılayıb.

Saxlanılan şəxslər zərərçəkənə xəsarətlər yetirib cibindəki pulları götürəndən sonra onu C.İbrahimovun "Opel" markalı avtomobilinin yük yerində dəstənin digər üzvü C.Fərzəliyevin Albalılıq qəsəbəsindəki evinə apararaq orada bir gün saxlayıblar.

Həmin evdə isə İ.Umudovun çılpaq şəkillərini çəkərək polisə şikayət edəcəyi təqdirdə onu bu görüntülərini sosial şəbəkələrdə yayacaqları ilə hədələyiblər.

Qeyd edilən faktla bağlı Sabunçu RPİ-nin İstintaq şöbəsində cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir, zəruri istintaq hərəkətləri, eləcə də əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Əli İnsanov məhkəməyə gəlməkdən imtina etdi

**Sabiq səhiyyə naziri Əli İnsanovun növbəti məhkəmə prosesi keçirilib. Musavat.com xəbər verir ki, sabiq nazir Qaradağ Rayon Məhkəməsinin barəsində çıxardığı hökmdən apelyasiya şikayəti verib. Şikayətə Bakı Apelyasiya Məhkəməsində hakim Əflatun Qasımovun sədrliyi ilə baxılıb.**

Əli İnsanov məhkəməyə məktubla müraciət edərək prosesdə iştirak etmək istəmədiyini deyib. İnsanov vəkili Ağaveyis Şahverdi vasitəsilə ərizə göndərərək, məhkəmədə iştirakdan imtina edib. Vəkil sabiq nazirin apelyasiya şikayətinə məhkəmə istintaqı aparılmaqla baxılması haqda vəsatət qaldırıb. Müdafiəçi bir sıra şahidlərin dindirilməsini, ekspertizaların keçirilməsini istəyib.

Vəkil deyib ki, Əli İnsanovun xəsarət yetirdiyi iddia olunan Penitensiar Xidmətin əməkdaşı Anar Məmmədovla üzləşmə protokolu, sabiq nazirə məxsus olduğu iddia edilən psixotrop tərkibli dərmanlarla bağlı baxış və götürülmə protokolları, 13 saylı cəzaçəkmə müəssisəsinin rəisinin tərtib etdiyi akt və ekspert rəyi sübutlar siyahısından çıxarılmalıdır. Vəkilin sözlərinə görə, bu sənədlər kobud qanun pozuntusu ilə əldə olunub və sübut kimi qiymətləndirilə bilməz.

Müdafiəçi ekspertizaların təkrar keçirilməsini, əvvəl rəy vermiş ekspertlərin də məhkəmədə dindirilməsini istəyib.

Dövlət ittihamını müdafiə edən prokuror Ceyhun Budaqov vəsatətlərin təmin olunmamasını istəyib. Həmçinin apelyasiya şikayətinə məhkəmə istintaqı aparılmadan baxılmasını təklif edib.

Hakimlər kollegiyası qısa müşavirədən sonra vəsatətin təmin olunmadığını, apelyasiya şikayətinə məhkəmə istintaqı aparılmadan, əlavə sübutlar araşdırılmadan baxılacağını elan edib. Əli İnsanovun məhkəmədə iştirakına gəlincə isə hakim bildirib ki, istənilən halda, onun saxlanıldığı 1 saylı Bakı istintaq təcridxanasına məlumat veriləcək.

Məhkəmə baxışı iyunun 22-nə təyin olunub.

Ona törətdiyi əmələ görə 7 il 5 gün azadlıqdan məhrumetmə cəzası təyin edilmişdi.

Xatırladaq ki, Ə.İnsanov 2005-ci ilin oktyabr ayında həbs olunmuşdu. O, dövlət vəsaitlərinin mənimsənilməsində və dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham edilirdi. 2007-ci ilin aprel ayında əmlakı müsadirə olunmaqla, 11 il müddətinə azadlıqdan məhrum olunan Ə.İnsanovun cəza müddəti ötən ilin oktyabr ayında başa çatmışdı. Bundan 2 ay əvvəl isə ona yeni cinayət işi açıldı. Yeni cinayət işi üzrə ona 7 il 5 gün cəza təyin edilib.

❑ İlkin MURADOV

YENİ MÜSAVAT
N 126 (6740) 13 iyun 2017

# Sabiq nazirin qandallanmasının hüquqi tərəfləri açıqlandı

## Ekspert Əkrəm Həsənov: "Ziya Məmmədovla Arif Əsgərovu həbs etmək üçün..."

**Dünya Bankı Azərbaycanla əməkdaşlığı dayandıra bilər. Səbəb odur ki, bu il fevralın 13-də prezidentin sərəncamı ilə Nəqliyyat Nazirliyinin ləğvindən sonra komandadan uzaqlaşdırılan Ziya Məmmədov və onun müavini Arif Əsgərovun 4 il öncə Dünya Bankından ayrılan kreditin xərclənməsində ciddi yeyintilərə yol verdikləri xəbəri yayılıb.**

Artıq Dünya Bankı "Azərbaycan Dəmir Yolları" QSC ilə Kanadanın qlobal "Bombardier" şirkəti arasında 2013-cü ildə bağlanmış və Bakı-Böyük Kəsik dəmir yolunun siqnalizasiya sisteminin qurulmasına dair müqaviləni yoxlamağa başlayıb. Kanadanın "The Glob and Mail" qəzeti yazır ki, Dünya Bankının layihə ilə bağlı başlatdığı auditin məqsədi Kanada şirkəti ilə Azərbaycandan müqavilənı imzalayanlar arasında rüşvət sövdələşməsinə dair şübhələri aydınlaşdırmaqdır.

340 milyon dollarlıq həmin müqavilənin 85 faizini Dünya Bankı maliyyələşdirib. İsveç hüquq-mühafizə orqanları artıq bu müqavilədən on milyonlarla dollarlıq "otkat" alındığını müəyyən edərək "Bombardier" şirkətinin yerli törəmə şirkətinin rəhbər şəxslərini həbs edib. Həmin müqavilə imzalanarkən "Azərbaycan Dəmir Yolları" QSC Z.Məmmədovun rəhbərlik etdiyi Nəqliyyat Nazirliyinin tərkibində idi, QSC-nin sədri vəzifəsini isə Arif Əsgərov yerinə yetirirdi.

Xəbərdə bildirilir ki, əgər Dünya Bankı "Bombardier"lə sabiq məmurlar arasında hansısa korrupsiya sövdələşməsini aşkar edərsə, Kanada şirkəti Azərbaycan layihəsindən çıxarılacaq və bundan sonra Dünya Bankının maliyyələşdirdiyi hansısa layihədə iştirak edə bilməyəcək.



Bu, Dünya Bankı kimi iri kreditorun nəzərində Azərbaycanın imicini də zədələyə bilər.

**İqtisadçı ekspert , hüquqşünas Əkrəm Həsənov mövzunu "Yeni Müsavat"a şərh edərkən deyib, ki, adıçəkilən şəxslərin məsuliyyətə cəlb olunması mümkündür:** "Dünya Bankı bu məsələni araşdırsa belə, Azərbaycan hüquq-mühafizə orqanları araşdırmadığı müddətcə Ziya Məmmədovu və müavinini heç kim həbs edə bilməz. Lakin onlara qarşı ittihamlar irəli sürülsə, əlbəttə ki, məsuliyyətə cəlb oluna bilərlər".

**Bu araşdırmanın nəticələrinə uyğun olaraq Dünya Bankının Azərbaycana necə münasibət göstərməsinə gəlincə, Əkrəm Həsənov bildirdi ki, əslində kreditor təşkilat indiyə qədərki bütün layihələrdə yeyinti hallarının olmasından xəbərdardır:** "İndiyə qədər Dünya Bankı Azərbaycanda 55 layihəyə ümumilikdə 3 milyard dollar vəsait ayırıb. Azərbaycan isə həm Dünya Bankının, həm də digər beynəlxalq qurumların reytinq cədvəlində korrupsiyanın mövcud olduğu ölkələrdən biri kimi tanınır. Dünya Bankında da bilirlər ki, onların maliyyə ayırdığı əksər layihələrin icrasında korrupsiya hallarına yol verilib. Mən hüquq şirkətləri və məsləhət şirkətləri ilə daim təmasdayam. Həmişə eşitmişəm ki, nəinki Dünya Bankı, digər beynəlxalq təşkilatların da Azərbaycan hökuməti vasitəsilə udulan layihələrin tenderləri şəffaf keçməyib. Hər zaman qaliblər öncədən məlum olub. Dünya Bankı da bunu bilib və göz yumub. Dünya Bankının xətti ilə Azərbaycanda qanunların hazırlanmasına da pul ayrılıb. Bu qurum Azərbaycan qanunvericiliyinin təkmilləşməsi ilə bağlı da iş görüb. Tenderlər keçirilib, qaliblər olub. Lakin ortaya heç bir keyfiyyətli qanun layihəsi çıxmayıb. Həmin vəsaitlər hesabına meydana çıxan bir dənə belə normal qanun yoxdur. Çünki həmin pullar da yeyilib. Bakı-Böyük Kəsik dəmir yolunun siqnalizasiya sisteminin qurulması layihəsi də eyni şəkildə icra olunub. Mən hesab etmirəm ki, Ziya Məmmədov və onun ətrafındakı qalmaqala görə Azərbaycanla əməkdaşlığı pozsun".

**Ə.Həsənovun sözlərinə görə, Dünya Bankı nəinki korrupsiya hallarının olduğunu bilir, hətta dolayısı ilə iştirak da edir, ən azından bizim məmurların əməllərinə göz yumurlar:** "Mənim sualım başqadır. Bu məsələ niyə məhz indi, Ziya Məmmədov vəzifədən çıxarıldıqdan sonra qalxıb? Niyə bu layihə ilə bağlı faktlar araşdırılır? Çünki bu təşkilatın maliyyələşdirdiyi istənilən layihədə yeyinti halları aşkarlamaq mümkündür. Hətta onların öz layihələri də olub, həmin layihələrdə də heç bir iş görülməyib. Sadəcə, pullar yeyilib. Mən şübhələnirəm ki, Ziya Məmmədovu kimsə daxildən "vurur". Sadəcə, məsələ o həddə qədər açılıb ki, Dünya Bankı da bunu araşdırmağa məcbur olub. İkinci variant isə odur ki, xaricdən kimsə Azərbaycanı nəyə görəsə cəzalandırmaq istəyir. Və ya hansısa danışıqlarda Azərbaycanın üstünə getmək istəyirlər. Bu faktdan da, sadəcə, bir alət kimi istifadə edirlər".

**Kanadanın tenderdə iştirak edən qlobal "Bombardier" şirkətinin cəzalandırılmasına gəlincə, ekspert bu şirkətin də real icraçı olmasını şübhə altına aldı:** "Bu cür layihələrdə tenderin qalibi həmişə xarici şirkət olmalıdır. Bunu təkcə Dünya Bankı tələb etmir, Avropa Birliyi də tenderlərdə xarici şirkətlərin iştirakını istəyir. Sadəcə olaraq, həmin xarici şirkətlərin Azərbaycanda yerli portnyorları olur. Qalib olacaq şirkət də öncədən bilinir. Tenderdə qalib gələn şirkət işi özü həyata keçirmir. O, kiminləsə müqavilə bağlayır, həmin şirkət də başqa biri ilə müqavilə imzalayır, o da digəri ilə razılaşır. Həmin mərhələlərdə pulun böyük bir hissəsi yeyilir və bu işi reallıqda həyata keçirəcək sonuncu şirkətə o qədər kiçik bir vəsait verirlər ki, məcburən layihəni bərbad bir formada həyata keçirir. Çünki onlara qəpik-quruş gəlib çatır. Kanadanın bu şirkəti ilə bağlı da eyni şey baş verib. O şirkət, sadəcə, tenderdə qalib gəlib. Bu cür şirkətlər beynəlxalq maliyyə qurumlarının əksər ölkələrdə həyata keçirdikləri tenderlərdə iştirak edirlər. Guya həmişə qalib gəlirlər. Reallıqda isə yalnız adları var. Əslində heç nə etmirlər. Onlara müəyyən qədər pul verilir. Digər vəsaitləri isə Azərbaycan portnyorları götürür və hansısa xırda bir şirkətə işi gördürürlər. İndi bu işin üstü açılıb. Dünya Bankı da elan edib ki, həmin şirkəti cəzalandıracaqlar və artıq öz tenderlərinə buraxmayacaqlar. Lakin başqa bir addım atmaq üçün Dünya Bankının əlində elə bir ciddi əsas yoxdur".

❑ **Nərgiz LİFTİYEVA**

# Hakimiyyət daxilində təhlükəli qüvvələr - iki rəy

**Hakimiyyət daxilində ona qarşı təhlükəli qüvvələrin formalaşdığı barədə zaman-zaman fikirlər səslənir. Maraqlıdır ki, iqtidar mətbəxinə yaxın və iqtidar komandasında təmsil olunan şəxslərin açıqlamalarında da belə fikirlər ortaya atılır.**

Son olaraq, BAXCP sədri, deputat Qüdrət Həsənquliyev belə bir açıqlama ilə çıxıb edib. O bildirib ki, Azərbaycana ən böyük təhlükə Rusiyadan gəlir və bu təhlükənin qarşısının alınması üçün Azərbaycanda Rusiyanın diktəsi ilə hərəkət edən kim varsa, zərərsizləşdirilməlidir. Onun fikirlərinə münasibət bildirən YAP-çı deputat Siyavuş Novruzov da həmkarına dəstək verib.



**Zahid Oruc:** "Prezidentin komandasında yer alıb, xalqın istəklərini yerinə yetirmək gərəkdir, bu, ən yaxşı yoldur"



**Fərəc Quliyev:** "İqtidar daxilində pozucu, sabotajla məşğul olan qüvvələrin olması istisna deyil"

**İqtidaryönlü deputat Zahid Oruc isə belə iddialara sadə dillə cavab verməyin mümkünsüz olduğunu söylədi:** "Bu, geniş təhlillər, araşdırmalar, faktlar, həmçinin məxfi məlumatlar tələb edir. Əgər biz bunu 2013-cü ildə deyən şəxslərə qarşı kəskin şəkildə çıxsaydıq, üstündən iki il keçəndən sonra həmin mövqeyi süngü ilə qarşılayanları haqlı olaraq cəmiyyət qarşısında açıq-aşkar günahlandırardılar. Çünki hakimiyyət sistemi içərisində ölkə rəhbərinin etimadından sui-istifadə edən, özünə böyük imperiya quran və bununla cəmiyyət, bütövlükdə millətin mənafeləri əleyhinə fəaliyyət aparan, böyük bir strukturun fəaliyyətini iflic edən, Azərbaycanın təhlükəsizlik mənafelərini sındıran Eldar Mahmudov nümunəsi ortaya qoyulardı. Kiminsə siyasi iddialarını irəli sürməsi, qarşısına hədəflər qoyması, qruplaşma yaradıb hakimiyyətin vahidliyinə zərbə vurması hadisəsi bir qədər obyektiv şərhlər tələb edir. Dövlət başçısının rəhbərliyi ilə vahid komandanın illərdir göstərdiyi fəaliyyət, ölkəmizdə belə bir komandanın təkrarlanmaması göz önündədir. Arqumentlərlə gücümüzü sübut etmişik. Xatırlayırsınızsa, Milli Məclisdə bəzi nazirlər ayrı-ayrı strukturların fəaliyyətini ittiham edərkən, bununla onların vəzifə səlahiyyətlərini aşmaları və açıq şəkildə siyasi iddia irəli sürmələrini cənab prezident çox ustalıqla normal bir məcraya yönəltməyi bacarmışdı. O zaman ölkə başçısı qeyd etmişdi ki, o nazirlər vəzifələrindən gedib partiya yaradarlar, siyasətlə məşğul olarlar. Əgər bu dövlətin bir çətiri altında vahid komandanın tərkibində olub, komanda qaydalarına tabesənsə, bu halda göstəriş və tapşırıqların, kollektiv mübarizə normalarının ətrafında davranmalısan. Bunu etmədikdə, demək, sən hakim partiyanın, iqtidarın sənə verdiyi üstünlükləri öz mənafeyinə xərcləmiş olursan. Bu mövzunun hörmətli həmkarımız Qüdrət Həsənquliyevin son müsahibəsindən çıxdığı məlumdur. Qüdrət bəy kifayət qədər dövlətçi şəxsdir, istedadlıdır, kifayət qədər də bilgilidir. Cənab prezidentin ölkə başçısı olduğu dönəmi obyektiv dəyərləndirməyi bacaran şəxsdir. Amma bununla belə, demək, onu narahat edən ayrı-ayrı məqamları ümumiləşdiribsə, buna hörmət etmək lazımdır. Hazırkı dönəmdə hörmətli Mehriban xanımın I vitse-prezidentliyə gəlməsi və bunun rəsmiləşməsi, Əli Həsənovun söylədiyi kimi, İlham Əliyevin silahdaşlarının hamısının birləşməsini təmin edən, hətta onlara rəhbərlik edə biləcək bir hadisədir. Ona görə də bunun qarşısında hansısa qüvvə özünə kənardan himayəçi rəhbər axtararsa, bu onun işidir. Beləri bağlı kabinetlər içərisində, yaxud ayrı-ayrı paytaxtlardan, ünvanlardan qarantiya almaq eşqinə düşürsə, bu ilk növbədə özünü məhv etmək anlamına gəlir. 2005-ci il nümunəsini xatırlada bilərik. O zaman iki nazir vəzifələri ilə vidalaşmalı oldu. Onlardan biri müxtəlif səfirliklər səviyyəsində inqilablar, müxtəlif ssenarilər həyata keçirmək eşqinə düşmüş, təsir agentlərinin yeminə çevrilmişdi. Belə olan təqdirdə düşünmürəm ki, İlham Əliyevin iradəsindən kənar mövqe tutan şəxslər bununla uğurlu yol seçdiklərinin fərqində olsunlar. 70-ci illərdə ulu öndərin əleyhinə bir şəxs fəaliyyət apармışdı. Ondan sonrakı dövr həmin şəxsin nə siyasi karyerası uğurlu oldu, nə də siyasətdə özünə yerə tapa bilmədi. Yaxud 1996-cı ildə Rəsul Quliyev parlament sədrliyindən getdi və bu illər ərzində onun Amerikada Azərbaycan amalı ilə hansısa bir konqresmenlə birləşib fəaliyyət apardığının şahidi olmamışıq. Yalnız monoloqlar söylədiyinin şahidi oluruq. Belə fəaliyyəti, yenə deyirəm, kimsə seçə bilər, amma nəticəsinin olmayacağı əvvəlcədən məlumdur. Prezidentin komandasında yer alıb, xalqın istəklərini yerinə yetirmək gərəkdir. Bu ən yaxşı yoldur. Peşəsini bilən şəxslərə ölkə başçısı etimad edir".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev bütün hakimiyyətlərdə belə qüvvələrin olduğunu söylədi:** "Amma təhlükəsizlik xidmətləri bu kimi məsələləri nəzərə alır, önləyici tədbirlər görürlər. Məsələn, yaxınlarda ordumuzda Rusiyaya çalışan şəxslərin üzə çıxmasını nümunə göstərə bilərik. Bu bir sızma idi. Digər tərəfdən, dövlət içərisində pozucu ünsürlərin olması, sabotajla məşğul olanların varlığı, şəxsi maraqlarını hər şeydən üstün tutanların olması mümkündür. Azərbaycanda Strateji "Yol Xəritəsi" hazırlanıb, özü də çox yaxşı hazırlanıb. Amma bunun həyata keçməyinə mane olan nazirliklər, məmurlar varsa, bu da hakimiyyətin əleyhinə işləyən amildir. O şəxslər istəsələr də, istəməsələr də yürüdülən siyasətə zərbə vururlar. Bunlar artıq hakimiyyətlə komanda kimi davranmırlar. Bunun da yolu həmin kadrların dəyişilməsidir. Zaman-zaman bu istiqamətdə siyasət aparılır, bəzi məmurlar gözümün qarşısında hətta nazirlik səviyyəsində həbslərə məruz qalırlar, gəncləşmə siyasəti yürüdülür. Bunu təkcə ölkəmizə aid etmək düzgün deyil. Dünyanın hər yerində belə hadisələr olur. Amma indiyə qədər Azərbaycanda çox da təhlükə törədən hadisə baş verməyib. Hakimiyyət içərisində savaş açmaq hər zaman olub. Azərbaycanda da oliqarxlar iş başına gəldikdən, imkanlarını artırdıqdan sonra siyasi ambisiyaları artır. Nəticədə müxtəlif yollara əl atırlar. Hakimiyyətə sivil yolla gəlmək istəməyən şəxslər zaman-zaman cəzalarını alıblar. Ola bilər ki, müəyyən dövrdə hansısa bir yerə çatasan və bu, səndə başgicəllənmə yaratsın, amma mütləq bədəlini ödəməlisən".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 126 (6740) 13 iyun 2017




## Tovuzu dolu vurdu - əhalinin əkin-biçin sahələri məhv oldu

### Sakinlər bildirirlər ki, 1970-ci illərdən bəri bu cür dolu yağdığını görməyiblər...

**İyunun 10-da Tovuz rayonunun bir neçə kəndinə dolu düşüb. Təxminən yarım saat davam edən dolu yağışı rayonun Qaraxanlı, Xatınlı, Qədirli, Əlimərdanlı, Mülkülü və digər kəndlərində fəsadlar törədib. Dolu yağışı nəticəsində kəndlərin əkin-biçin sahələrinə, şəxsi təsərrüfatlara ciddi ziyan dəyib.**

Bu barədə "Yeni Müsavat"a Tovuz sakini Fikrət Məmmədov məlumat verib. Onun sözlərinə görə, dolu nəticəsində kəndlərdə yerləşən demək olar ki, bütün evlərin dam örtüyü ciddi zədələnib.

Kənd sakinlərinin toyuq-cücə təsərrüfatının da dolu nəticəsində məhv olduğu məlum olub. Həyətlərdəki avtomobillərin ön və arxa şüşələri aramsız yağan dolunun ağırlığına tab gətirməyib. F. Məmmədov bildirib ki, rayonun Əlimərdanlı kəndində bir nəfər kənd sakini də dolu yağışı nəticəsində yaralanaraq, xəstəxanaya aparılıb:

"Hələ indiyə qədər belə bir halın şahidi olmamışam. Çox qəribədir ki, adətən dolu yumru olduğu halda, Tovuzun kəndlərinə yağan iri və kələ-kötür idi. Əhalinin xeyli sayda toyuq-cücəsi, qazı məhv olub və ümumilikdə, kənd təsərrüfatına ciddi zərər dəyib. Camaatın kartof sahələri də məhv olub. Mənim yaxın qohumumun 50 şiferi deşik-deşik olub. 1970-ci illərdən sovetlər dağılana qədər bir sistem fəaliyyət göstərirdi. Həmin vaxtı Tovuza 5 yerdə uzaqvuran top qoymuşdular və qara bulud gəldiyi zaman onu toplar vasitəsilə vururdular. Eləcə də bulud bir kəndin üzərindən keçəndə, digər kənddəki topla vurub, həmin buludu dağıdırdılar. Nəticədə isə elə olurdu ki, heç yağış da yağmırdı. Artıq Gürcüstanda bu cür sistem qurublar və orada dolu yağmır. Bizdə də bu cür hadisələrin qarşısını almaq üçün həmin doludağıdan sistemi qurmaq lazımdır. Camaata külli miqdarda ziyan dəyib. Kənd camaatı ümidini məhsula bağlamışdı, məhsul da məhv oldu. İnsanlar evlərini sığortalamadığı üçün belə məqamlarda ödəniş də ala bilmirlər".

**Ekoloq Telman Zeynalov hadisə ilə bağlı "Yeni Müsavat"a bildirib ki, məsələnin Rusiya ilə də əlaqəsi var:**

"Əvvəllər iyun ayında camaat istinin əlindən getməyə yer axtarırdı. İndi isə gördüyünüz kimi, dolu yağır. Deyərdim ki, silahdan istifadə olunur. Əslində bəzi ölkələr Rusiyada dolu yağdırmaq istəyirlər, Tovuz da şimalda yerləşdiyi üçün orada da dolu yağır. 60 ildir ki, elmi işlə məşğulam, ancaq indiyə qədər görməmişəm ki, hər hansı atmosferdə müsbətlə mənfi təzyiq üst-üstə düşsün. Dünyada belə hal olmayıb. Sadəcə olaraq, bunu süni formada yaradırlar və nəticəsi də göz qabağındadır. İri dolu yağırsa, bununla hər hansı formada mübarizə aparmaq olmaz. Belə bir vəziyyətdə əhali mütləq ziyan çəkir. Ancaq məsələn, şaxtanın zərərinin qarşısını almaq olar. Belə ki, axşamüstü əkinin ətrafında ocaq qalayırsan və tüstü artıq şaxtanın zərərinin qarşısını alacaq. Məhsul da bu üsulla qorunacaq. Dolunun qarşısını isə sovet dönəmində xüsusi toplar vasitəsilə alırdılar. İndi də artıq dövlət bu kimi hadisələrin qarşısını almağı düşünməlidir. İyun ayının ortalarıdır, ancaq dənizdə çimmək mümkün deyil. Çünki su hələ də soyuqdur. 1954-55-ci illərdə camaat Xəzər dənizində artıq mart ayından etibarən çimə bilirdi. O dövrdə havalar çox isti idi. İndi isə soyuqlaşma prosesi gedir. Hər 70-80 ildən bir havalar soyuyur. Bu, artıq qanundur. Təbiətin qanunlarına isə müdaxilə etmək mümkün deyil. Qasırğa, tufan kimi hadisələri yüngülləşdirmək üçün yalnız silahdan istifadə etmək mümkündür. Əgər Şimali Qafqazda dolu, qar yağırsa, bu, bizə də təsir edir. Dövlət artıq bu məsələyə əncam qılmalıdır. Nəticədə isə əziyyəti xalq çəkir. Bu kimi hadisələrdən sonra məhsulların da qiyməti bahalaşacaq".

Onu da qeyd edək ki, rayon icra hakimiyyətindən bildiriblər ki, hazırda dolunun vurduğu ziyanın müəyyənləşdirilməsi və fəsadların aradan qaldırılması istiqamətində iş aparılır.

❑ Əli RAİS

## Uşaqların zəhərlənmə səbəbi bəlli oldu - rotavirus

**İyunun 10-da Hacı Zeynalabdin Tağıyev, Novxanı kəndi, Saray və Ceyranbatan qəsəbəsində yaşayan 2-7 yaş aralığında olan 119 uşaq zəhərlənmə diaqnozu ilə Sumqayıt şəhər 1 saylı Uşaq Xəstəxanasına yerləşdirilib. İlkin versiya olaraq zəhərlənmənin sudan baş verdiyi deyilsə də, "Azərsu" bu məlumatı təkzib etdi.**

Bu barədə müxtəlif versiyalar irəli sürülür. Kimisi uşaqların yediyi nədənsə zəhərləndiyini dedi. Zərərçəkmiş uşaqların valideynləri uşaqlarının səhhətinin məhz su içdikdən sonra pisləşdiyini bildirmişdilər. Nəhayət, iyunun 12-də zəhərlənməyə səbəbin su olduğu açıqlandı.

"Azərsu"nun mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı açıqlamasında suyun tərkibinin yoxlandığını və qeyri-adi heç nə aşkarlanmadığını dedi: "Suyun tərkibi həm bakterioloji, həm də kimyəvi yoxlanılıb. Hər şey qaydasındadır. Suda heç bir problem yoxdur".

**Səhiyyə Nazirliyi Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru İmran Abdullayev isə "Yeni Müsavat"a açıqlamasında zəhərlənməyə səbəbin su olduğunu dedi:** "Aşkar olunmuş xəstələrdən götürülmüş nümunələrdə rotavirus aşkar edilib. Bunun da əsasən su ilə keçməsi ehtimal olunur. Çünki bu virus daha çox su ilə keçir. Ola bilsin ki, uşaqlar çirklənmiş çiy su içiblər. Bununla da əlaqədar zəhərlənmə baş verib. Mikroorqanizmlərə çirklənmiş su daxil olub. Ola bilsin ki, təmiz suya çirkab sular qarışıb. Suda təmizlənmə və dezinfeksiya işləri aparılıb. Bu işlər mütəmadi olaraq davam etdiriləcək. Aparılan laborator müayinələrin sayı da artırılıb. Bu gün də biz həmin ərazidən su nümunələrinin götürülməsini davam etdiririk. Hazırda ayın 9-10-da götürülmüş su nümunələrinin nəticələrinə görə, suyun tərkibi bütün standartlara cavab verir. Amma hadisə ayın 7-də baş verib və o gün suyun tərkibində nəyin olub-olmadığına dair nə isə demək mümkün deyil. Çünki ayın 7-dən sonra suda xlorlama işləri aparılıb".

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Liya Bayramova isə xəstəxanada 46 uşağın qaldığını dedi:** "Qan analizləri nəticəsində uşaqlarda rotavirus infeksiyası aşkar edilib. 4 gün ərzində 136 uşaqda infeksiyalar baş verib. Müalicə və profilaktik məqsədlə uşaqlara xəstəxanada tibbi yardım göstərilib. Hazırda xəstəxanada 46 uşağın müalicəsi davam etdirilir. Bu uşaqların vəziyyəti kafidir və müalicələri davam edir. İnfeksiya baş vermiş ərazilərdə tibbi profilaktik tədbirlər və əhali arasında sanitariya maarifi işləri davam etdirilir. Həm də baş vermiş hadisə Səhiyyə Nazirliyi və Sumqayıt Şəhər İcra Hakimiyyətinin aparıcı mütəxəssisləri tərəfindən hadisənin səbəblərinin araşdırılmasına və aidiyyəti qurumlarla birgə kompleks tədbirlər həyata keçirilməsinə başlanılıb. Artıq zəhərlənmə diaqnozu ilə heç kim xəstəxanaya müraciət etmir. 136 uşaqdan da 46 nəfər uşaq xəstəxanada qalıb. Mənə elə gəlir ki, onları da yavaş-yavaş evə buraxacaqlar. Biz bu uşaqlarda rotavirus olduğunu aşkarladıq. Bu virus yüngül qızdırma və ishalla müşahidə olunur".



**Liya Bayramova:** "Qan analizləri nəticəsində uşaqlarda rotavirus infeksiyası aşkar edilib"



**Vaqif Qarayev:** "Antibiotiklərdən istifadə etsəniz vəziyyət daha da ağırlaşacaq"

Respublika Gigiyena və Epidemiologiya Mərkəzində baş direktorun epidemiologiya məsələləri üzrə müavini Afaq Əliyeva isə lent.az-a bildirib ki, "Rotavirus" infeksiyası əsasən çirkli əllər vasitəsilə keçir.

**Bu infeksiyanın uşaqlar arasında geniş yayıldığını deyən A.Əliyeva bildirib ki, infeksiya çiy sudan da keçə bilər:** ""Rotavirus" infeksiyasına qarşı peyvənd var, amma ölkəmizdə bu virus geniş yayılmadığı üçün buna qarşı peyvənd tətbiq edilmir. Ola bilsin, gələcəkdə bu məsələ müzakirə edilsin".

**A.Əliyeva bildirib ki, virusdan qorunmaq üçün gigiyenik qaydalara əməl etmək lazımdır:** "Əlləri tez-tez yumaq lazımdır. Meyvə-tərəvəzləri yaxşı yumamış yemək olmaz".

**"Sumqayıtda uşaqlar arasında baş verən hadisədə ən böyük şübhəmiz odur ki, su xəttinə hansısa mənbədən çirkab qarışır".**

**APA-nın xəbərinə görə, bunu respublikanın baş pediatrı Nəsib Quliyev deyib. O bildirib ki, Sumqayıtda uşaqlar arasında ilk xəstələnmə halları iyunun 7-də baş verib:** "Bununla bağlı Xudatdan gələn Şollar su xəttində "Azərsu" və Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzi, epidemik nəzarət şöbəsi tərəfindən müayinələr aparılır. İlkin müayinələrin nəticəsi göstərdi ki, bu hadisə su xəttindən baş verən çiy su ilə bağlıdır, törədici isə "rotavirus"lardır. Bu virus dünyanın hər yerində yayılıb, böyüklər və kiçiklərdə bu xəstəlik qusma, ishal və yüksək hərarətlə müşahidə olunur. Uşaqlar bu xəstəliyə daha çox həssasdırlar. Çünki yaşlılar həyatlarında bir və ya bir neçə dəfə bu xəstəliklə rastlaşdığı üçün immunitet formalaşır. Bir nəfər də olsun, ağırlaşma hadisəsi yoxdur. Yaxın günlərdə prosesi tamam dayandırıb, sonuna çatdıracağıq. Uşaqlara heç zaman çiy su vermək olmaz. Ölkədə kifayət qədər təmizlənmiş su satılır, yaxud suyu qaynatdıqdan sonra uşağa vermək lazımdır".

Zəhərlənmə ilə bağlı səsləndirilən versiyaların biri də suya kimyəvi maddələrin bir qrup şəxslər tərəfindən qatılmasıdır. Bu versiyanın nə dərəcədə əsaslı olması sual altındadır. Çünki rəsmilər hər zaman su hövzələrinin güclü qorunduğunu, mühafizə olunduğunu bildirirlər. İçməli su hövzələrinə nəzarət edilməzsə, müxtəlif fəsadlar yarana və su kütləvi epidemiya mənbəyinə çevrilə bilər. Bu səbəbdən içməli su anbarlarının təhlükəsizliyinin təmin edilməsinin strateji vəzifə hesab edildiyi deyilirdi. Su hövzələrinin necə qorunduğu ilə bağlı FHN-dən yaxın günlərdə açıqlama verəcəklərini bildiriblər.

Qeyd edək ki, rotavirus infeksiyası - qastroenteritin kəskin formalarından biri olub, rotaviruslar tərəfindən törədilir. Daha çox altı ayından iki-üç yaşına qədər körpələrin yoluxduğu bu bağırsaq infeksiyası əhalinin bütün yaş qruplarında xəstəlik törədə bilir. İlk dəfə 1973-cü ildə avstraliyalı mütəxəssislər tərəfindən aşkar olunmasına baxmayaraq, rotavirus infeksiyası müasir dövrdə öz aktuallığını saxlayır. Bəzi statistik məlumatlara görə, 3 yaşına qədər uşaqlarda müşahidə edilən ishalların 95 faizi rotaviruslar vasitəsilə törədilir.

**Pediatr Vaqif Qarayev uşaqlarında bu halı aşkar edən valideynlərə diqqətli olmağı və antibiotikdən qətiyyən istifadə etməməyi məsləhət gördü:** "Bu virusun yayılmasında mövsümilik var. Sudan, çirkli qida məhsulları ilə kontaktda olduqda, bəzi hallarda isə hava-damcı yolu ilə keçir. Əsasən uşaqların mədə-bağırsaq traktını zədələyir. Hərarət yüksəlir, təkrari qusmalar, davamlı ishal müşahidə olunur. Bəzən xəstəlik hamının tanıdığı qrip kimi başlaya bilər. Ağır hallarda uşaq orqanizmində susuzlaşma gedir. Bu hal ciddi müalicə tələb edir. Şəxsi gigiyenik qaydalara davamlı və ciddi əməl eləmək lazımdır. Özünüz müalicə ilə məşğul olmayın. Bu xəstəlikdə antibiotiklərdən istifadə olunmur. Antibiotiklərdən istifadə etsəniz vəziyyət daha da ağırlaşacaq. İlkin yardım kimi uşağa duzlu məhlul (rehidron) vermək olar. Amma xəstəliyin ilkin əlamətləri müşahidə olunan kimi həkiminizə müraciət edin".

❑ Günel MANAFLI

## Elçin Əmiraslanov aclığı dayandırıb

### Akif Nağı: "Söz veriblər ki, qarşıdakı günlərdə müalicə müəssisəsinə köçürəcəklər"

**İyunun 1-dən etibarən Qobustan qapalı həbsxanasında ölüm aclığına başlayan ömürlük məhbus, "OMON"un komandirlərindən olmuş Elçin Əmiraslanov aksiyanı dayandırıb. Müalicə müəssisəsinə köçürülmə tələbi yerinə yetirilən Qarabağ əlili aclığın 10-cü günündə belə bir qərar qəbul edib.**

Mətbuatın diqqətdə saxladığı aksiyaya, nəhayət, sonda aidiyyəti qurumlar reaksiya verərək, Qobustan həbsxanasına gediblər. 10 gün aclıq edən "OMON" komandirinin səhhətində əlavə problemlər də yaranıb.

**Bu barədə müsavat.com-a Qarabağ Azadlıq Təşkilatının sədri, Ömürlük Məhbusların Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri Akif Nağı məlumat verib:** "Aksiyanın 10-cu günündə Elçin Əmiraslanovla həm həbsxananın rəhbərliyi, həm də Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin nümayəndələri ciddi şəkildə maraqlanıblar. Təkidlə xahiş ediblər ki, aksiyanı dayandırsın. Elçinin əsas tələbi müalicə müəssisəsinə köçürülməsi ilə bağlı idi. Çünki səhhətində ciddi problemlər var idi. Elçinə tələbinin yerinə yetiriləcəyinə söz veriblər. Hazırda o, həbsxananın tibb məntəqəsindədir. Amma söz veriblər ki, qarşıdakı günlərdə müalicə müəssisəsinə köçürəcəklər. Aksiya nəticəsində onda halsızlıq yaranıb. Tibb məntəqəsinə ona görə köçürüblər ki, uzun müddət olan aclıq nəticəsində yaranan problemlər aradan qalxsın. Qızı ilə danışıb və bildirib ki, səhhətində aclıq aksiyası ilə bağlı əlavə ciddi problemlər yaranıb. Amma həyatı üçün ciddi bir təhlükə yoxdur".

Qeyd edək ki, 21 ildir həbsdə olan E.Əmiraslanov Hepatit C-dən əziyyət çəkir. Həbsdə olduğu müddət ərzində hər il müalicə alan "OMON" komandirinə bu il müalicə olunmağa icazə verilmirdi. Məhz bu səbəbdən səhhəti ağırlaşan sabiq komandir çıxış yolunu aclıq aksiyasına başlamaqda görmüşdü.

❑ Cavanşir ABBASLI

# Ziya Məmmədovun Eldar Mahmudova hər ay 1 milyon verməsinin sirri üzə çıxır

## Beynəlxalq qalmaqala adı qarışan sabiq nazir bu dəfə "sudan quru" çıxa bilməz

**2015-ci ilin oktyabrında Milli Təhlükəsizlik Nazirliyində aparılan yoxlamalar illərlə pərdəarxası, pıçıltı ilə danışılan xəbərlərə həqiqət möhürünü vurdu. MTN 2 ilə yaxındır ki, ləğv olunub. Məhkəmələrdə "MTN işi" keçirilir və 2015-ci ilə qədər pıçıltı ilə danışılanlar cinayət işlərində fakt və sübutlarla bərkidilməklə, ifadələrlə təsbit olunmaqla qeyd olunub. Söhbət nazirlərin, məmurların sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudova, onun generallarına, çoxsaylı şöbə müdirlərinə hər ay xərac verməsindən gedir.**

Bu gün məhkəmələrdə "MTN işi" ilə əlaqəli olan "Rabitə işi" də paralel olaraq aparılır. Orada da iş üzrə təqsirləndirilənlər MTN-də Eldar Mahmudovun nəzarət etdiyi "obşak"a hər ay xərac verilməsindən söhbət gedir. Kimisi aylıq olaraq 150 min dollar, kimisi də 1-2 milyon ödəyib.

Eldar Mahmudov vəzifəsindən azad edilən kimi, Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində MTN-in vəzifəli şəxsləri barədə cinayət işi başlanıb. Oktyabrın 20-də istintaqa Beytulla Hüseynovu da çağırıblar. O, ifadəsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyində baş verənlərdən danışıb. Bu ifadə əsasında da "Rabitəçilər işi"nə start verilib.

Əvvəlki bir neçə gündə "MTN-çilər"lə "rabitəçilər"in istintaqı birlikdə aparılıb. Sonradan "Rabitəçilərin işi" ayrılıb və Korrupsiyaya qarşı Mübarizə İdarəsinə göndərilib.

"Rabitəçilərin işi"ndə MTN-in vəzifəlilərinə aylıq pul vermələri barədə ifadələr yer aldığından, qurumun Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin rəisi olmuş general-mayor Sübahir Qurbanov, Monitorinq Xidmətinin sabiq rəisi general-mayor Teymur Quliyev də bu işə cəlb olunub.

Milyonlarla mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə kimi əməllərdə suçlanan Beytulla Hüseynov oktyabrın 20-də saxlanıldığı gün kabinetindəki seyfdən 20 min 960 manat pul götürüldüyü bildirilir. Ona verilən ittihamlardan biri də budur ki, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin tabeliyindəki qurumlarda, o cümlədən müxtəlif rayonların telefon qovşaqlarında təmir-tikinti işləri zamanı və avadanlıq alınarkən xərclər şişirdilib. Beləcə, dövlət büdcəsindən ayrılmış milyonlarla manat mənimsənilib. MTN-çilərə isə aylıq pul verilib ki, kimsə bu məsələləri araşdırmasın, pulların mənimsənilməsinə qarşışmasın.

**"Rabitəçilərin işi" üzrə ittiham aktından sitat:**

"Rabitə Nazirliyinin Aparat rəhbəri vəzifəsində işləmiş Vidadi Zeynalov paytaxtın Zərifə Əliyeva küçəsi, 77 ünvanında, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin inzibati binasındakı xidməti otağında ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin sabiq əməkdaşı Qurbanov Sübahir Xalıq oğluna fəaliyyətlərinin himayə edilməsi üçün 01.01.2011-ci il tarixdən 2015-ci ilin oktyabr ayına kimi hər ay 100 ABŞ dolları olmaqla, həmin dövrün məzənnəsi ilə ümumilikdə 3 milyon 047.000 (üç milyon qırx yeddi min) manat verib. Bununla yanaşı, o, həmçinin ləğv edilmiş MTN-in digər əməkdaşı Quliyev Teymur Rəcəb oğluna 01.07.2013-cü il tarixdən 08.10.2015-ci il tarixə kimi hər ay 50.000 ABŞ dolları olmaqla həmin dövrün məzənnəsi ilə ümumilikdə 1.158.000 (1 milyon 158 min) manat rüşvət verib. Həmin epizod üzrə ibtidai istintaqa ifadə verən V.Zeynalov da faktı təsdiqləyib".

Xərac ödəmə kontekstində istintaqdan kənar qalan, məhkəmələrdə araşdırılmayan, 2015-ci ildən sonra da müzakirə olunan mövzular hələ də qalmaqdadır. Fərq ondadır ki, daha kimsə Eldar Mahmudovun 13 il nəqliyyat naziri olan Ziya Məmmədovdan hər ay 1 milyon manat xərac aldığını pıçıltı ilə danışmır.

Bu gün hər iki nazir vəzifədə deyil. Eldar Mahmudovla bağlı araşdırmalar getdiyi haqda rəsmilərin dilindən eşidilən söhbətlər o qədər çeynənib ki, artıq kimsə sabiq nazirin həbs ediləcəyinə inanmır. Bu gün Eldar Mahmudovun çox güclü "çətirin" altına sığındığı düşüncəsi hakimdir. Sabiq nəqliyyat naziri haqda isə bunu söyləmək olmaz. İlin əvvəlində prezidentin sərəncamı ilə MTN kimi Nəqliyyat Nazirliyi də ləğv olundu. Ziya Məmmədovun müavini Musa Pənahov birləşdirilmiş Rabitə, İnformasiya Texnologiyaları və Nəqliyyat Nazirliyində müavin statusunu qoruya bildi. Onun şefi isə "göyərtədən kənar" saxlanıldı. Bundan sonra xarici və yerli mətbuatda Ziya Məmmədovun "çirkli oyunları" haqda məlumatlar yayılmağa başladı. Məlum oldu ki, Dünya Bankı "Azərbaycan Dəmir Yolları" ASC ilə Kanadanın qlobal "Bombardier" şirkəti arasında 2013-cü ildə bağlanmış və Bakı-Böyük Kəsik dəmir yolunun siqnalizasiya sisteminin qurulmasına dair müqaviləni yoxlamağa başlayıb. Bu barədə Kanadanın "The Glob and Mail" qəzeti yazır ki, Dünya Bankının layihə ilə bağlı başlatdığı auditin məqsədi Kanada şirkəti ilə Azərbaycandan müqaviləni imzalayanlar arasında rüşvət sövdələşməsinə dair şübhələri aydınlaşdırmaqdır. 340 milyon dollarlıq həmin müqavilənin 85 faizini Dünya Bankı maliyyələşdirib. İsveç hüquq-mühafizə orqanları artıq bu müqavilədən on milyonlarla dollarlıq "otkat" alındığını müəyyən edərək "Bombardier" şirkətinin yerli törəmə şirkətinin rəhbər şəxslərini həbs edib. Həmin müqavilə imzalanarkən "Azərbaycan Dəmir Yolları" ASC Z.Məmmədovun rəhbərlik etdiyi Nəqliyyat Nazirliyinin tərkibində idi, ASC-nin sədri vəzifəsini isə onun müavini, bu gün vəzifəsiz qalan Arif Əsgərov yerinə yetirirdi.


Eldar Mahmudov


Ziya Məmmədov

Xəbərdə bildirilir ki, əgər Dünya Bankı "Bombardier"lə sabiq məmurlar arasında hansısa korrupsiya sövdələşməsini aşkar edərsə, Kanada şirkəti Azərbaycan layihəsindən çıxarılacaq və bundan sonra Dünya Bankının maliyyələşdirdiyi hansısa layihədə iştirak edə bilməyəcək.

Z.Məmmədovun nazirliyi dövründə onun ölkədaxili yolların çəkilişinə büdcədən ayrılan milyonları "otkat"a çevirməsi və ümumilikdə büdcə vəsaitlərinin mənimsəməsi üçün saysız məlumatlar yayılırdı.

Amma hər dəfə Z.Məmmədov "sudan quru" çıxa bilirdi. Onun əməlləri araşdırılmırdı. Səbəblərindən biri kimi sabiq nazirin hər ay MTN-ə verdiyi xəracı da göstərmək olar. Z.Məmmədov E.Mahmudovun qismində iqtidar komandasında güclü himayəçi tapmışdı və onun "boğazını yağlamaqla" özünün toxunulmazlığını, əməllərinin isə araşdırılmasının qarşısının alınmasını təmin edə bilmişdi. İndi isə onun da, Eldar Mahmudovun da adlarının qarşısında sabiq sözü var. E.Mahmudov özünün əməllərinin qarşısını almaq üçün çaba göstərirkən Z.Məmmədovun dadına çata bilməz.

**Aylıq 10 milyon xərac versə belə...**

❑ **E.HÜSEYNOV**

# Jurnalist vəsiqəsi istəyən seyidin əhvalatı



**Samir SARI**

**Əvvəllər seyidlik institutu ilə bağlı yazım, ən azı yazıların içində abzaslarım olub. Hətta "Dehqan Quləməlinin mistik qüvvəsi" adlı bir hekayəm də var (ötən il kulis.az saytında dərc olunub). İsrarlı xahişlər osa, onu sabahda-zadda saytda dərc etdirərəm. Təvazökarlıqdan Xorasan qədər uzaq olsa da, deyim ki, maraqlı və yumoristik hekayədir.**

Amma düzü, indiyədək seyidliklə bağlı məsələnin bu qədər yoğunlayacağını düşünməzdim.

Onu da qeyd edim ki, mən özüm, ateistlərin qulağından uzaq olsun, seyidlərə inanıram. "İnanıram" deyəndə elə çıxmasın ki, müəllif seyidlərin mistik qüvvə sahibi olmalarına inanır. Xeyr. Mən tanıdığım bəzi seyidlərin yaxşı oğlan olmasına inanıram və hələ yanılmamışam.

Bu xüsusda bir əhvalat danışım, qulaq asın. 2000-ci il idi, xüsusi xətir-hörmətim olan seyid eloğlu *(adını çəksəm, çox adam tanıyar)* mənə 3\4 ölçüdə bir şəkil gətirdi, dedi ki, ona jurnalist vəsiqəsi düzəldim. Dedim, a seyid, sənin nəyinə lazımdır, əli pulla oynayan iş-güc adamısan. Seyid dedi ki, jurnalist vəsiqəsi ona o səbəbdən lazımdır ki, nişanlısı ilə Dağüstü parkda oturanda, bulvarda dayanıb dənizə baxanda polislər gəlib ilişməsin *(o vaxtlar bu, yayğın hadisəydi)*. Heç demə, eloğlum bir dəfə orda olanda görüb ki, polislər saxladıqları cütlüyün birini buraxdılar, amma bunları çək-çevirə salıblar. Bu da soruşub ki, bu ayrı-seçkiliyin səbəbi nədir, ona deyiblər ki, buraxılanlar jurnalist idilər. Ona görə də seyid eloğlum istəyirdi ki, ona jurnalist vəsiqəsi düzəltdirim.

Onun verdiyi şəkli alıb qoydum cibimə, amma vəsiqə-filan düzəltmədim. Bir dəfə zəng vurub "vəsiqə necə oldu" deyə soruşdu, yola verdim, sonra daha zəng eləmədi. Ondan da bir-iki il sonra evləndi, Dağüstü parkdan ayağı kəsildi və ona qoruyucu vəsiqə lazım olmadı.

İndi desəm inanmazsınız, o seyidin 17 il öncə mənə verdiyi fotoşəkil hələ də portmanatımın içindədir. Onu ordan çıxarmağa əlim gəlmir. Hesab edirəm ki, onun şəkli mənə uğur gətirir. Bu, əlbəttə, ateizm təlimlərinə ziddir. Bilənlər mənim din, ilahiyyat xüsusundakı düşüncələrimi bilir. Amma yəqin ki, o seyidə inanmağımı mənə çox görməzlər. Çünki o şəxs gerçəkdən də həyatda tanıdığım ən sözübütöv, gözütox, mərifətli, dürüst, vicdanlı oğlanlardan biridir. O, heç vaxt tanınmış nəsildən olduğunu, seyidliyini gözə soxmur, həmişə sadə və təvazökardır.

İndi gələk camaata seyid vəsiqəsi verənlərə və alanlara.

Bəlli olduğu kimi, Məhəmməd peyğəmbərin nəslindən olanlara "seyid" (bəzən də "seyyid") deyirlər. Peyğəmbər (s.ə.s) 1400 il əvvəl yaşayıb. O vaxtdan bəri azı 40-45 nəsil dəyişib. Yəni peyğəmbər bu gün özünü seyid bilənlərin 45-ci babası ola bilər - ən yaxşı halda.

İndi isə bir babanın züryətlərinin statuslarını sıralayaq. Baba-oğul (qız)-nəvə-nəticə-kötücə-yadıca-iticə..

Göründüyü kimi, yeddinci nəsildə artıq "iticə" gəlir. Bu nədən elədir? Bir babanın qanı oğlunda 50 faizdir, nəvəsində - 25, nəticəsində - 12,5, kötücəsində - 6,25, yadıcasında - 3,12, iticəsində - 1,5.

Bundan sonrakılar isə babalarının qanını, elə də genini 0-la, hətta ilk onluqdan sonrakılar 2, 3, 5 sıfırla başlayan faiz göstəriciləri ilə daşımağa məhkumdurlar.

Yəni əgər 7 nəsildən sonra babanın qan-gen göstəriciləri sıfırlanırsa, ondan 45 nəslə nə qalar? Bir misqal qalarmı? Qalmaz.

Bu məsələnin sırf riyazi-bioloji tərəfi. İndi gələk məsələnin ictimai-mənəvi-əxlaqi və ticari tərəfinə.

O gün kimsə zarafatla yazmışdı ki, bizdə seyidlərin sayı Səudiyyə Ərəbistanında olduğundan çoxdur. Adam haqlıydı. Gerçəkdən də elədir.

Ötən əsrin əvvəllərində İrandan minlərlə adam Arazın bu tayına adlayıb və gəlib burada özlərini seyid kimi təqdim ediblər - ticarətdə, işdə vəziyyətləri yaxşı olsun deyə. O üzdəndir ki, Arazboyu rayonlarda seyidlərin xüsusi çəkisi ağırdır, yəni sayları çoxdur. Çünki İrandan gələnlərin çoxu orada məskunlaşıb. Onların züryətləri də sırf dolanışıqlı işdir deyə bu ənənəni davam etdiriblər.

Bir iş də var ki, özlərini seyid adlandıranların çoxu özlərini adlarına uyğun aparmağa çalışırlar - ağır taxtalı olurlar, içmirlər, çəkmirlər, qan barışdırırlar, xeyriyyəçilik edirlər, mərdiməzarlıq etmirlər, bir sözlə, el içində hörmətlərini saxlayırlar.

Amma ara-sıra seyidlərin içində də dələduzlar, karyeristlər, mərdiməzar adamlar çıxır. Onlar da başqa bir sortdur.

Uzun sözün kəsəsi, seyidlik vəsiqəsinə heç bir ehtiyac yoxdur. Bir şey ki, ağır seyidlərdən biri məndən jurnalist vəsiqəsi istəyirdi, deməli, həyatda daha güclü vəsiqələr var.

YENİ MÜSAVAT
N 126 (6740) 13 iyun 2017



# Yasamalın icra başçısı yanan yataqxanadan danışdı

**İbrahim Mehdiyev:** "Əvvəlkindən qat-qat yaxşı vəziyyətdə təhvil veriləcək"

**Xəbər verdiyimiz kimi, iyunun 7-də paytaxtın Yasamal rayonu ərazisində Şərifzadə küçəsi 1 ünvanında yerləşən Azərbaycan Texniki Universitetinin 3 nömrəli yataqxanasında yanğın baş verib. Baş vermiş hadisə nəticəsində 16 məcburi köçkün ailəsinin məskunlaşdığı mənzillər yanıb. Hadisədən bir gün sonra müvafiq dövlət qurumları sakinlərlə görüş keçirərək bütün maddi problemləri həll edəcəklərinə və mənzilləri qısa müddətdə təmir edəcəklərinə dair söz veriblər.**

*Bəs hazırda proses nə yerdədir? Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev bu barədə "Yeni Müsavat"a danışıb.*

***- İbrahim müəllim, yanan yataqxanada yaşayan qaçqınların məskunlaşdırılması ilə bağlı vəziyyət nə yerdədir?***

- Bu məsələ artıq həll olundu. Orada yaşayan 16 ailənin hər birinə kirayə evdə qalmaları üçün kompensasiya verilib. Ailə tərkibindən asılı olaraq kirayə mənzillərin pulu ödənilib. İkinəfərlik ailəyə birotaqlı, 3-4 nəfərlik ailəyə ikiotaqlı, 5-6 nəfərə 3 otaqlı mənzillərin kirayə pulu verilir. Zərər dəymiş əmlakların invertarizasiyası üçün sərəncam verildi. O əmlakların dəyəri dəqiqləşdirildi və hər bir mənzil sahibinə ödənildi. Bu insanların bir ay müddətində dolanışığını təmin etmək üçün ərzaq pulu da verilib. Bütün bu proseslər baş nazirin müavini Əli Həsənov tərəfindən razılaşdırılmış şəkildə həyata keçirilib, hər bir ailəyə kompensasiya ödənilib. Həmin məcburi köçkünlər də kompensasiya məbləğindən razı qalıblar. Əli Həsənov həmin əraziyə təcili olaraq briqada göndərib. O mənzillərin hamısı dövlət hesabına tam təmir ediləcək. Yataqxana əvvəlkindən də qat-qat yaxşı vəziyyətdə məcburi köçkünlərə təhvil veriləcək.

***- Yataqxana öz əvvəlki profilini saxlayacaqmı?***

- Bəli. Necə vardısa, o cür də təmir edilib təhvil veriləcək. Çünki yataqxananın bir hissəsinin profilini dəyişib, digər hissəsini saxlamaq bir qədər doğru olmaz. Olduğu kimi təmir olunacaq. Bu ailələrin öncədən istifadə etdikləri ümumi mətbəx, şkaflar və sair də yenidən təmir olunacaq. Biz həmin ailələri iki dəfə qəbul etdik. Həm hadisə yerində görüşdük, həm də icra hakimiyyətində Əli müəllimlə *(Əli Həsənov- L.N.)* bir yerdə qəbul etdik, söhbət etdik. Nəticədə komissiya yaradıldı, onların özlərindən də komissiyaya üzv olanlar oldu. Bizim icra başçısının müavini komissiyanın sədri oldu. "Qaçqınkom"dan da nümayəndələr oldu. Əhali ilə razılaşdırılmış şəkildə komissiya yaradıb onların problemlərini həll etməyə çalışdıq.

***- Bildiyimiz qədər, həmin yataqxananın sakinləri əsasən məcburi köçkünlərdir...***

- Bəli, əsasən Füzuli, Ağdam rayonundan olan məcburi köçkünlər idi. Bir də məshəti türkləri idi. Ümumilikdə 16 ailə idi.

***- Təmir işlərini aparan hansı şirkətdir? Bununla bağlı tender keçirildini?***

- Onu Əli müəllim özü təyin edib. Qaçqın və məcburi köçkünlər üçün nəzərdə tutulan binaları tikən, təmir edən bir şirkətdir.

***- Bu cür hadisələr zamanı mətbuat həmin işi görən şirkətin adını soruşduqda, adətən məmurlar deməK istəmirlər...***

- Mən həmin şirkətin adını bilsəm, deyərdim, ancaq bilmirəm. Çünki bu bizə aid olan məsələ deyil. Onu Əli Həsənov müəyyən edir. Biz həmin ailələrə kirayə mənzillərin ayrılması, pulun ödənilməsi, kompensasiyanın verilməsi və sair işlərlə məşğuluq.

***- Kompensasiyaların verilməsi üçün ümumilikdə nə qədər pul ayrılıb?***

- Ümumilikdə 70 min manat pul ayrılıb. Lakin təmir işləri buraya daxil deyil.

**❑ Azər AYXAN, Nərgiz LİFTİYEVA**

---

**İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi bu məqaləni çap olunması üçün "Yeni Müsavat" qəzetinə yollayıb. Həmin yazının çap olunmasını məqbul bilib, oxuculara təqdim edirik.**

**Əsğər Farsi**



# İslam dünyasının üzük qaşı - Qüds

"Ziyarət üçün üç yerə hazırlıq olar - Məscidul həram, mənim məscidim və Əqsa məscidi"

**Həzrət Məhəmməd (s)**

Bu məqalə Beytül Müqəddəs şəhərindəki müqəddəs yerlərin yaranması, tikilməsi və tarix boyunca təmiri ilə bağlıdır. Yazıda ilk öncə şəhərin coğrafi mövqeyi və ilahi dinlər arasında mübarək yeri barədə söhbət açılacaq. Müqəddəs şəhərdə mövcud olan müqəddəs yerlərdən Qübbətüs Səxrə, Məscidul Səxrə, Qübbətül Silsilə və Əqsa Məscidini xüsusi vurğulamaq lazımdır. Həmin müqəddəs məkanların hər biri haqqında hörmətli oxucuların geniş məlumatı var. Qüds dünyanın ən böyük dinləri - islam, xristianlıq və yəhudilik üçün çox əhəmiyyətlidir, heç bir məkan bu şəhər qədər müqəddəs sayıla bilməz. Hətta ən mötəbər yerlərdən olan Məkkə və Mədinə belə, ancaq müsəlmanlar arasında müqəddəs sayılır, ancaq Qüds bütün dinlər üçün müqəddəs bir yerdir.

## Qüds şəhəri

Qüds indiki Fələstin ölkəsində 35 dərəcə uzunluqda və 13 dəqiqə Qrinviçdən şərqdə, 31 dərəcə enlikdə və 47 dəqiqə şimalda yerləşir. Tarixilik baxımından dünyanın ən qədim şəhərlərindən biridir. Belə ki, Qüdsün tarixi 45 əsr əvvəllərə gedib çıxır. Üç ilahi dinin - yəhudilik, xristianlıq və islamın beşiyi sayılır. Qüds müxtəlif dövrlərdə müxtəlif adlarla tanınmışdır: Yubus, İlya, Kapotolina, Beytul Müqəddəs, Qüds, Qüdsi Şərif....

Qüds şəhəri 3 hissəyə bölünür: Şərqi Beytül Müqəddəs, Qərbi Beytül Müəddəs və qədim şəhər. Müqəddəs hərəm şəhərin cənub şərqində - qədim hissəsində yerləşir.

## Müqəddəs Hərəm

Qədim şəhərin cənub hissəsi islam tikililəri ilə zəngindir. Müqəddəs hərəm 144 min kvadratmetr əraziyə malikdir. Hərəmin qərb tərəfində aşağıdakı darvazalar var: Məğrib qapısı (mərakeşlilər qapısı). Bu qapı "Nəbi qapısı", babul Silsilə (Davud qapısı) kimi də məşhurdur; babul Mutavazən (pak qapı), Qəttatin qapısı da adlanır. Eyni zamanda Hədid qapısı, Nazir qapısı (Əlaəddin Bəsri qapısı), Mikayıl qapısı, Məclis qapısı, Xəlil qapısı və Vəlid qapısı kimi də məlumdur.

Hərəmin şimalında Ətəm qapısı *(Peyğəmbərlər şərəfi, Davudiyyə və Feysəl adı ilə də tanınır)* babul Xittə və babul əsbat yerləşir.



Şərq qapısı isə qızıl darvaza adlanır və zeytun dağına birləşir. Çox müsəlmanlar namaz üçün şimal qapısından içəri daxil olurlar.

Hərəmin bütün divarları 10 metr hündürlükdə iri ağ daşlardan inşa olunub.

Hərəmin şimal hissəsi müsəlman məskənləri olub, qərb tərəfdə xristianlar, cənub-qərbdə isə yəhudilər yaşayıblar.

Hərəmin giriş qapıları müsəlman şahları tərəfindən düzəltdirilib hədiyə edilmişdir. Bunlar çox böyük ustalıqla hazırlanmışlar. Misal üçün, Silsilə qapısının eni 4 metr, hündürlüyü isə 8 metrdir və çox gözəl, unikal sənət əsəri sayıla bilər.

Hərəmin həyətində böyük sərv ağacları vardır və orada olan quyulardan qidalanırlar.

## Qübbətüs-Səxrə

Qübbə ərəb dilində günbəzə deyilir. Səxrə isə hər üç din üçün müqəddəs və hörmət edilən bir yerdir. Deyilənlərə görə, İslam Peyğəmbəri (s) bu qaya üzərindən meraca getmişdir. Qayanın uzunluğu şimaldan cənuba 17.5 metr və eni şərqdən qərbə 13 metr və hündürlüyü birdən iki metrə qədərdir. Qızıl günbəz düz qayanın üstündədir. Günbəz 691-ci ildə Əməvi şahı Əbdülməlik ibn Mərvan tərəfindən tikilib. Əbdülməlik bu binanın xərcini ödəmək üçün Misirin 8 illik gəlirinin bu işə yönəldilməsi barədə əmr verib. 1099-cu ildə Səlibçilər onu kilsəyə çevirərək, qaya üzərini qurbanlıq yer ediblər. Ancaq Səlahəddin Əyyubi bu şəhəri fəth etdikdən sonra onların qondarma əlamət və nişanələrini aradan aparıb, günbəzi bəzətdirib və divarları mərmərlə üzlətdirib. Əyyubi şahları, Məmlüklər və Osmanlı sultanları bu məscidin təmir edilməsinə çox diqqət ayırıblar. Məsciddə islam memarlığının əsas incəlikləri və gözəllikləri çox gözəl şəkildə görünməkdədir.

## Məscidul Səxrə

Söylənildiyi kimi bu, Peyğəmbərin (s) meraca getdiyi yerdir və məscidin ortasında yerləşir. Qaya içində mağara var ki, ona Peyğəmbərlər mağarası deyilir.

## Əqsa Məscidi

Hərəmin cənub tərəfində yerləşən məsciddir və uzunluğu 81.5, eni 54.5 metrdir. Məscidin 11 giriş qapısı, 7 tağ eyvanı var və hamısı daşdandır, iri giriş qapısı mərkəzdədir. Ortada cənub tərəfdən günbəz var və onun altında qaya yerləşir. Günbəzin daxili təmiz qızıldandır. Mehrabı 583-cü ildə Səlahəddin inşa etdirib. Minbər isə 564-cü ildə tikilib. Sütunların baş hissəsi Quran ayələri ilə bəzənib. Dam örtüyünə on kiloqramlarla qızıl işlədilib. Ayələr Nəsx və Kufi xətləri ilə yazılmışdır.

Məscidin cənub-qərbindəki Ağ məscid, yaxud Qadınlar məscidi adlanır. Şimalda Məqaribə muzeyi yerləşir. Şərq tərəfdə Zəkəriyya mehrabı, 40 şəhid, Ömər məscidi adlı tikililər var.

Rəvayətlərdən məlum olur ki, Zirzəmi məscidi ilk dəfə xristianlar tərəfindən inşa edilib və onların inancına görə İsa (ə) buradan asimana qalxmışdır. Deyilənlərə görə, divarlarında islamdan əvvəlki dövrə aid kitabələr vardır.

Beytül Müqəddəs barədə islam Peyğəmbəri (s) demişdir: **"Ziyarət üçün üç yerə hazırlıq olar - Məscidul həram, mənim məscidim və Əqsa məscidi".**

Müsəlmanlar 638-ci ildə bu şəhəri fəth etmişlər, Xəlifə şəhərə daxil olub amanamə yazmışdır. Bu, islamın Qüdsə olan əlaqəsini göstərir. O zaman hərəm viran olunmuşdu və xəlifə onun yenidən bərpası barədə göstəriş verdi.

Əqsa məscidinin adı İsra surəsinin ilk ayəsindən götürülüb. Əqsa sözünün mənası uzaq deməkdir, yəni uzaq məscid, Məkkədən uzaqda yerləşdiyinə görə belə adlanırmış. Əbubəkr Ətiq Nişaburinin şərhinə əsasən, o zaman Məkkədən ən uzaq məsafədə yerləşən məscid olub və ora getmək üçün bir aylıq yol qət etmək lazım imiş. Bu gün məscid Məscidul Əqsa adlanır və hərəmin cənubunda yerləşir. Onu da qeyd etmək lazımdır ki Qurani-kərimdə buyurulduğu və camaatın da söylədiyinə əsasən, Əqsa məscidi tək məscid yox, bəlkə də bütün hərəmə verilən addır.

YENİ MÜSAVAT
N 126 (6740) 13 iyun 2017

# Ermənistan "oyun"dan çıxarılır - mühüm gəlişmə




**İyunun 12-də Naxçıvanda Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə taktiki təlimləri başlayıb. Təlimlər iki qardaş ölkənin hökumətləri arasında imzalanmış anlaşma memorandumuna müvafiq şəkildə, qoşun növlərinin cəlb olunması ilə keçirilir.**

## Düşmənin Naxçıvan təlaşı - Azərbaycan və Türkiyə orduları yenidən birlikdə

### İki qardaş ölkənin silahlı qüvvələri bir ayda ikinci dəfə birgə təlimlərə başladı; **erməni ekspert:** "Moskva bizim maraqlar hesabına Bakı və Ankara ilə anlaşa bilər..."

Musavat.com-un Azərbaycanın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, təlimlərdə məqsəd Silahlı Qüvvələrin təcrübə mübadiləsi vasitəsilə qoşunların koordinasiyanı inkişaf etdirmək, birgə əməliyyatları keçirmək qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır. Təlimlər iyunun 16-dək davam edəcək.

Qeyd edək ki, Azərbaycanla Türkiyə arasında ötən ayda da Azərbaycan ərazisində - Naxçıvanda ortaq təlimlər keçirilmişdi. Həmin təlimlər 10 gün sürmüşdü. Qısa zaman sonra təzədən iki qardaş ölkə Silahlı Qüvvələrinin birgə hərbi manevrlərinin baş tutması diqqət çəkməyə bilməz. Bundan əlavə, indinin üzündə Gürcüstanda - Tiflis yaxınlığında Azərbaycan, Gürcüstan və Türkiyə xüsusi təyinatlılarının ortaq təlimləri davam edir *(iyunun 14-də bitəcək).*

*****

Belə hərbi manevrlərin sayca artması, şübhəsiz, sevindiricidir. Bu, Azərbaycanın hərbi qüdrətini və ordumuzun döyüş qabiliyyətini daha da artırmaqla yanaşı, həm də və ilk öncə son vaxtlar davakar ritorika sərgiləyən işğalçı Ermənistana bir ismarışdır. Belə görünür ki, bu mesaj-ismarışlar hədəfinə çatır. Müşahidələr göstərir ki, düşmən ölkədə xüsusən də Naxçıvanda bir ayda iki dəfə Azərbaycan-Türkiyə hərbi təlimlərinin keçirilməsi İrəvanı ciddi şəkildə rahatsız etməyə başlayıb.

Bu da əslində məntiqlidir. Əvvəla, Naxçıvan sərhədindən İrəvana cəmi 45-50 km-dir. Bu, o deməkdir ki, Qarabağda iri hərbi əməliyyatlar başlarsa, Ermənistan öz ordusunu bütünlüklə separatçı rejimə köməyə göndərə bilməyəcək. Əks təqdirdə, Naxçıvandakı ordu birləşmələrimiz düşmən ölkəyə arxadan olduqca ciddi problemlər yarada bilər.

Söhbət həm də İrəvanın öhdəsindəki "İsgəndər M" raket komplekslərindən Azərbaycana qarşı istifadənin mümkünsüzlüyündən gedir. Yəni Ermənistan buna risk eləsə, o zaman İrəvanın külü göyə sovrular. Bundan ötrü Naxçıvandakı Türkiyə istehsallı "Qasırğa" komplekslərini işə salmaq kifayətdir. Erməniləri narahat edən həm də budur - arxa cəbhə sarıdan qayğılar.

İkincisi, Qars müqaviləsinə görə, Türkiyə Naxçıvanın Azərbaycanın tərkibində olmasının qarantıdır. Bu, həmçinin o anlama gəlir ki, qardaş ölkə Azərbaycanın razılığı ilə istənilən an Naxçıvanda hərbi bazalar qura bilər. İşğalçı tərəfin iddiasına görə, belə bazalar artıq çoxdan orada var. Bəzi rusiyalı hərbi ekspertlər isə bu yöndə güclü hazırlıqların getdiyi və Naxçıvandakı hərbi təlimlərin də bunun bir təzahürü olması qənaətindədir. Ən əsası, Ermənistanı Azərbaycanın NATO üzvü Türkiyənin döyüş təcrübəsinə yiyələnməsi narahat edir.

*****

Erməni ekspert dairələrində də baş verən proseslərdən dolayı bir əndişə müşahidə edilməkdədir. Onların bir çoxunun fikrincə, yetərli suverenlik səviyyəsinə malik olmaması Ermənistan xarici siyasətdə, bu və ya digər məsələlərdə müstəqil qərar verməkdən məhrum edir.

**Musavat.com-un məlumatına görə, bu haqda Iragir.am saytındakı məqaləsində politoloq İqor Muradyan yazır:** "Rusiya izolyasiya vəziyyətində olan Ermənistana istənilən qərarı sırımaq imkanına malikdir. Avropa Birliyinin (AB) məmurları nə deyir-desinlər, təşkilat Ermənistana öz suverenliyini itirmiş ölkə kimi baxır və heç kim bilmir ki, bu ölkə ilə niyə və necə ciddi münasibət qurmaq olar".

**Erməni politoloq daha sonra qeyd edir:** "Qərbdə yaxşı başa düşürlər ki, Moskva belə bir unikal imkanı əldən buraxmayacaq və Ermənistanın maraqları hesabına Azərbaycan və Türkiyə ilə anlaşmağa çalışacaq. Söhbət ilk növbədə Dağlıq Qarabağ məsələsindən gedir. Müəyyən bir kursu rədd edən Ermənistanın Rusiya qarşısında regional funksiyaları Azərbaycanın imkanları ilə zəiflədiləcək. Yəni stavka Azərbaycana ediləcək. NATO və Avropa Birliyi üçün bu, elə də asan deyil, ancaq tamamilə həll oluna bilən və artıq həll edilmiş məsələdir. Azərbaycan əvvəllər də strateji planda müəyyən funksiyalar yerinə yetirib, indi isə onlar daha geniş diapazon əldə edəcəklər. Bununla da Rusiyanın Cənubi Qafqazda mövqeləri minimuma enəcək. Ancaq Ermənistan oyun səhnəsindən yoxa çıxır. Başqa sözlə, problemlər ayrı müstəvidə həll olunacaq. Bu oyunda bir neçə oyunçu olacaq, ancaq onların arasında Ermənistan olmayacaq".

**Erməni politoloqa görə, ABŞ və onun Avropadakı tərəfdarlarının ən yaxşı halda gözlədiyi Türkiyə və Rusiya arasındakı rəqabət ola bilər.** "Hazırda Qərb Rusiyaya siyasi-təbliğati və iqtisadi müharibə elan edib. Ermənistan üçün bu, amansızcasına təkərlər altda qalmaq deməkdir. Ankara Bakı üçün öz stilistikalarını ən əlverişli situasiyaya uyğunlaşdırmaq zamanıdır".

*****

Əlbəttə ki, regiondakı durum, Qarabağ probleminin həlli xeyli dərəcədə Rusiya-Türkiyə münasibətlərindən, lap dəqiqi, Moskvanın bölgədə nə dərəcədə Ankara və Bakı ilə anlaşmasından asılı olacaq. Bu oyunda doğrudan da işğalçı Ermənistan həlledici söz sahibi, oyunçu deyil, İrəvan bütünlüklə Kremldən asılıdır.

Lakin Rusiya da güclə hesablaşan bir dövlətdir. Odur ki, Azərbaycan və Türkiyənin hərbi əməkdaşlığı, birgə hərbi təlimləri indi heç vaxt olmadığı qədər mühüm önəm kəsb edir - həm də Dağlıq Qarabağ ixtilafı üçün.

❑ **Siyasət şöbəsi**

# 25 il öncənin ibrət dərsi



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 99-cu ildönümü tamam olacaq. 1918-ci ildə müsəlman Şərqində ilk demokratik cümhuriyyət kimi təşəkkül tapan Azərbaycan Xalq Cümhuriyyətinin birinci işi məhz öz ordusunu yaratmaq barədə qərar verməsi olmuşdu. Bu da təbii idi. Çünki Cümhuriyyət elan olunsa da, onun ərazisinin mühüm hissəsi, paytaxt Bakı erməni daşnakları və bolşevik tör-töküntülərinin nəzarətində idi.**

Güclü dövlətin əsas qarantı sözsüz ki, güclü ordudur. Ətrafı qeyri-dost, müstəqil dövlətimizə diş qıcayan və dil uzadan məkrli qüvvələrlə əhatələnmiş, Ermənistan adlı xəbis qonşusu olan Azərbaycan üçünsə o, xüsusilə vacibdir. Müasir güclü ordunun əsas şərti isə güclü, dayanıqlı və inkişaf eləmiş iqtisadiyyatdır, hərbi sənayedir.

Böyük, təbii qaynaqlar hesabına da yaxşı silahlanmış ordu qurmaq olar. Amma razılaşaq ki, yerli hərbi sənaye, peşəkar hərbi kadrlar və hərbi məktəblər olmadan bu ordu xeyli dərəcədə xaricdən - başqa ölkələrdən və onların hərbi sənayesindən, hərbi məktəblərindən, xarici silah satıcılarından asılı durumda qalacaq.

Məhz güclü iqtisadiyyat özü ilə bərabər güclü hərbi sənayenin qurulmasını labüd və mümkün edir, ona zəmin yaradır, ölkəni silah idxalçısından silah ixracatçısına çevirir. Nə xoş ki, Azərbaycan bu yolda kövrək də olsa, inamlı addımlar atmağa başlayıb - İsrailin, Türkiyənin, Pakistanın hesabına.

Diqqət edin, Rusiya bu sahədə bizimlə əməkdaşlıq eləmir, eləmək istəmir, yalnız bazar qiymətinə bizə silahlar satır. Rusiya hətta Ermənistanda da ortaq hərbi istehsalla bağlı infrastruktur yaratmağa həvəs göstərmir - ermənilərin bu arzusu hələ də gözlərində qalıb. Çünki Moskva bilir ki, o halda rus silahından asılılıq azalacaq.

Ancaq ordunun gücü tək silahlanma faktoru ilə də bağlı deyil. O, eyni zamanda insan amili ilə - əsgərin, zabitin döyüş ruhu ilə ölçülür. Bu isə cəmiyyətdəki, dövlətdəki ümumi psixoloji duruma bilavasitə bağlı məsələdir və hərbi qələbənin ən mühüm şərtlərindən biridir. Yəni cəmiyyət, xalq hansı əhvaldadırsa, ordu da təxminən eyni ovqatda olacaq. Bu xüsusda daha bir önəmli təqvimi qeyd eləmək lazım gəlir.

Bu da odur ki, iyun ayı müstəqil Azərbaycanın tarixinə həm də erməni separatçı-işğalçı qüvvələrinə qarşı həyata keçirilmiş uğurlu yay hücum kampaniyası ilə düşüb. 25 il öncə - iyunun 12-16-da Əsgəran, 13-16 iyunda Şaumyan (Ağcakənd), 16 iyunda isə hər iki uğurlu əməliyyatın məntiqi davamı olaraq həyata keçirilmiş Ağdərə əməliyyatı nəticəsində iki rayonumuz düşmən qüvvələrdən təmizlənmişdi. O ərazilərin böyük bir qismi indi də bizim nəzarətimizdədir.

Hələ təzə-təzə formalaşan Silahlı Qüvvələrimizin bu uğuru sözsüz ki, o vaxt xalqda misilsiz bir ruh yüksəkliyi yaratmış, özünə və qələbəyə inamı böyük ölçüdə möhkəmlətmişdi. Nəyin hesabına mümkün olmuşdu bu qələbə? Əlbəttə ki, ilk növbədə Azərbaycan əsgərinin, onun komandirinin şücaəti və ordu-xalq vəhdəti hesabına!

Təsadüfi deyil ki, həmin qələbələrin, uğurlu yay hərbi kampaniyasının davamı məhz bu vəhdətə, bu sarsılmaz birliyə xələl gələn kimi - orduda satqınlar əl-qol açan kimi dayandı. Daha dəqiqi, nə vaxt ki, Surət Hüseynov erməni qüvvələrini yox, Azərbaycan hakimiyyətini özünə düşmən elan edib, nəzarətindəki silahlı birləşmələri Xankəndinin 3 km-liyindən Bakıya tərəf yönəltdi. Bununla da düşmən təzədən toparlanmaq üçün misilsiz bir şans əldə elədi. Sonrası, yeni hərbçiləri Qarabağ cəbhəsindən çıxarıb hakimiyyət davasına, hakimiyyət oyunlarına cəlb etmənin ağır sonucu məlumdur...

Bu yaxınlarda Silahlı Qüvvələrimizdə satqın şəbəkəsi ifşa olunanda yada ilk öncə 25 il öncəki xəyanət çetesi düşdü. Ordunu, onun döyüş potensialını daxildən parazit kimi yeyən bu çetenin neytrallaşdırılması həmişə dövlətin 1 nömrəli vəzifəsi olmalıdır. Zira, ordu-xalq, xalq-ordu vəhdətinə, silahlı qüvvələrin döyüş bacarığına bundan güclü zərbə vuran ikinci məkrli faktor yoxdur. 25 il öncənin dərsi əsla unudulmamalı!!

YENİ MÜSAVAT
N 126 (6740) 13 iyun 2017

**ABŞ-ın "dərin dövlət"inin Donald Trampın əli ilə dünyanı daha da qarışdırmaqda olduğu barədə ekspertlərin iddiaları artmaqdadır. Bu fikirdə olan siyasi təhlilçilərin fikrincə, yeni prezidentin siyasəti dərindən bilməyən şəxs olması Amerikadakı güclərin əlini-qolunu daha da açıb. Əgər prezident Hillari Klinton olsaydı, ona Trampa edilən təsir qədər təsir göstərmək mümkün olmazdı və sair.**

# "Dünya həm siyasi, həm iqtisadi cəhətdən çox narahat günlərini yaşayacaq"

## Tanınmış politoloq deyir ki, "Trampa "dərin dövlət"in təsiri getdikcə daha da güclənəcək...



**Politoloq Qabil Hüseynli** bu tipli şərhləri qismən bölüşür. O, "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ABŞ-da prezidentlər dəyişir, amma ənənəvi siyasət demək olar ki, dəyişmir. Amerikanın fundamental xarici siyasət xətti var. O xarici siyasət xəttində həddsiz bir mühafizəkarlıq var. Burada hər hansı bir dəyişkənlik yalnız ciddi səylər nəticəsində mümkün olur. Bu da bir adamın iradəsi ilə yox, prezident və "dərin dövlət"in birgə səyləri ilə baş verə bilər: "Tramp bu gün Amerika siyasi həyatına təsir edə biləcək bir fiqur deyil. Bunu hamı başa düşür. Amma Trampın komandası bütövlükdə nə dərəcədə səriştəlidir və Amerikanın maraqlarını nə dərəcədə qoruya bilər? Bu suala da birmənalı cavab vermək çox da asan deyil. Düzdür, bəzən vurğulayırlar ki, Trampdan fərqli olaraq onun komandası güclü komandadır. Ancaq hər halda, Trampın nə özü, nə də komandası bu dövrdə siyasət aləminə konseptual xarakterli bir şey gətirməyib. Dünya düzəninə cavabdeh olan ABŞ bu dünya düzəninin qorunub-saxlanmasına hələ ki elə bir ciddi töhfə verməyib. Dünyada sabitləşmə prosesi getmək əvəzinə, vəziyyətin daha da mürəkkəbləşməsi, gərginləşməsi xəttini görürük".

**Politoloq qeyd etdi ki, ABŞ prezidentləri "dərin dövlət"in drektivlərini həyata keçirir. Bu göstərişlərə müəyyən subyektiv mülahizələr prezident tərəfindən əlavə edilə bilər. Amma böyük çapda siyasət həmin siyasətdir, bundan kənara çıxmaq mümkün deyil:** "Bütün bunları nəzərə alaraq qeyd etmək mümkündür ki, ABŞ-ın indiki siyasəti daha çox müdaxilə etməklə özünü büruzə verməyə başlayıb. Ümumiyyətlə, Respublikaçılar hakimiyyətdə olanda onlar həmişə xarici siyasətdə aqressiv olurlar və başqa dövlətlərin işinə müdaxilə siyasətini gücləndirirlər. Bu da iri neft maqnatlarının maraqlarından irəli gəlir. İri neft maqnatları da dövlət siyasətinə təsir edən rıçaqlardan biridir".

**Q.Hüseynli hesab edir ki, hakimiyyətə Tramp yox, Demokratlar Partiyasının namizədi Hillari Klinton gəlsəydi, sözsüz ki, onların siyasətində "dərin dövlət"in, neft maqnatlarının təsiri respublikaçılara olan təsir qədər olmayacaqdı:** "Düzdür, xanım Klinton da prezident olsaydı, ABŞ-ın bugünkü siyasətindən çox da kəskin fərqlənən siyasi xətt olmayacaqdı. Ola bilsin ki, bir az maskalanmış formada həyata keçirilən xarici siyasət yürüdüləcəkdi, Rusiya ilə münasibətlər dərhal kəskin qarşıdurma xətti üzrə start götürəcəkdi. Klintonun başı Rusiya ilə haqq-hesab çəkməyə daha çox qarışacaqdı. Klinton Rusiyanı ABŞ-ın bir nömrəli düşməni hesab edirdi və "dərin dövlət"i də, komandasını da buna inandıra biləcəkdi və dəstək alacaqdı. Amma yenə də Amerikanın maraqlarının həyata keçirilməsi yeridilən siyasətin ana xəttini təşkil edəcəkdi. Bu amili də vurğulamaq lazımdır ki, Trampdan fərqli olaraq Hillari Klinton siyasətdə bişmiş siyasi xadimdir. Məlumdur ki, əgər prezident siyasəti dərindən bilirsə, "dərin dövlət" deyilən anlayışın müxtəlif elementləri arasında məharətlə manevr etməyi bacara bilir və onları bəlli bir cizgilər daxilində saxlamağı bacara bilir və "dərin dövlət" bir çox hallarda bu cür prezidentin siyasətinə ciddi mane ola, onu diktə edə bilmir. Tramp tərəfindən isə buna nail olmaq mümkün deyil. Çünki Tramp siyasətdə bişmiş lider deyil. Ona görə də Trampa "dərin dövlət"in təsiri getdikcə daha da güclənəcək və dünyada xaosun artmasının şahidi olmaqdayıq. Başlanan bu prosesin qarşısını almaq çox çətin olacaq. Ramazan ayından sonra müsəlman coğrafiyasındakı qarşıdurma daha da aktiv fazaya keçəcək. Burada qarşı duran tərəflərdən birinə ABŞ, o birinə Rusiya rəhbərlik edir. Ramazan ayı bitdikdən sonra bu bölgədəki proseslər bəlli maraqların düzüb-qoşduğu konsepsiya çərçivəsində gedəcək. Dünyamız həm siyasi, həm iqtisadi cəhətdən özünün çox narahat günlərini yaşayacaq".

❑ **Etibar SEYİDAĞA**

# Qətər böhranı yeni mərhələdə

## Doha Vaşinqtonda dəstək axtarır

**Bir neçə ərəb ölkəsi ilə Qətər arasında böhran davam edir. Ötən həftənin əvvəli Səudiyyə Ərəbistanı başda olmaqla, bir neçə ərəb və Afrika ölkəsi Qətəri terrorizmi dəstəkləməkdə ittiham edərək onunla əlaqələri dayandırıb. Hazırda faktiki olaraq körfəz ərəb ölkələrinin blokadasında olan Qətərə ərzaq və nəqliyyat dəstəyini Türkiyə və İran verir.**




Bir həftə əvvələ qədər Qətərlə Yaxın Şərq və dünya siyasəti mövzularında müttəfiq olan ölkələrin indi onu az qala işğala hazırlaşmasının arxasında bir sıra amillər dayansa da, hələlik rəsmi ittiham Qətərin terrorizmi dəstəkləməsidir. Hətta bu ölkənin ən yaxın müttəfiqi olan ABŞ-ın prezidenti də Qətər rəhbərliyini terroru dəstəkləməkdə ittiham edib. Prezident Tramp bildirib ki, Qətər uzun zamandır terrora dəstək verir və artıq bu dəstəyi dayandırmaq zamanı gəlmişdir. Eyni zamanda Tramp deyib ki, ötən ay Ər-Riyadda keçirilən sammitdə terrorun maliyyələşməsinin qarşısının alınması ilə bağlı razılıq əldə olunub.

Ancaq maraqlıdır ki, prezidentdən fərqli olaraq dövlət katibi və Pentaqon daha yumşaq və barışdırıcı çağırışlar edir. Yeri gəlmişkən, Qətərdə ABŞ-ın bölgədə ən böyük hərbi hava bazalarından biri yerləşir. Bazada 11 min Amerika əsgəri mövcuddur, baza İŞİD-ə qarşı əməliyyatların mərkəzidir.

Qeyd edək ki, sözügedən dövlətə qarşı əsas ittiham bu ölkənin terroru maliyyələşdirməsi ilə bağlıdır. Ancaq konkret olaraq hansı qruplaşmaya və nə zaman maliyyə ötürməsi haqda detallı bilgi yoxdur. Bəzi müşahidəçilərə görə, söhbət bir neçə ay əvvəl İraq ərazisində ov edərkən əsir düşən qətərlilərin azad edilməsi üçün ödənən puldan gedir. Belə ki, iddialara görə bu ilin əvvəlində İraqda ov edən Qətər hakim ailəsinə mənsub 26 əsilzadə yerli "Hizbullah Briqadaları" adlı qruplaşma tərəfindən girov götürülüb. Daha sonra onların azad edilməsi üçün Qətər hakimiyyəti həm qruplaşmaya pul ödəyib, həm də Suriyada mühasirədə olan şiə qəsəbələrini azad etməsi üçün radikal silahlı qruplara pul ödəyib. Ümumilikdə Qətərin şahzadələri azad etmək üçün 1 milyard dollara yaxın pul xərclədiyi və bunun 400 milyona qədərinin Tehrana çatdığı iddia olunur. İddialara görə, məhz bu hadisə ərəb ölkələrini, xüsusən də İranla düşmən vəziyyətində olan Səudiyyə Ərəbistanını qəzəbləndirib, o da bunu İranla gizli əməkdaşlıq olaraq təqdim edib.

Son məlumatlara görə, Qətər hökuməti bu iddialara qarşı terrorla mübarizə fəaliyyətlərini təftiş etmək üçün ABŞ-ın sabiq ədliyyə naziri Con Eşkroftun hüquq firması ilə müqavilə bağlayıb. Hüquq firması ərəb dövlətlərinin Qətərə qarşı iddialarını araşdıracaq. 90 gün davam edəcək təftiş fəaliyyətləri üçün Eşkroftun firmasına 2,5 milyon dollar pul ödənəcək. Firma Qətər hökumətinin terrora qarşı mübarizəsi, terrorun maliyyələşməsinə qarşı fəaliyyətlərini araşdırıb məruzə hazırlayacaq. Eyni zamanda firma Qətər hökuməti üçün lobbi fəaliyyətləri həyata keçirəcək.

Görünən odur ki, Qətər hökuməti özünü məhz amerikalılar qarşısında təmizə çıxarmağa çalışır. Bu isə o deməkdir ki, Doha əsl sifarişçinin kim olduğunu bilir. Və aydın məsələdir ki, indi Doha üçün əsas olan özünü Vaşinqtondan gələn təhlükədən qorumaqdır. Eyni zamanda aydın məsələdir ki, Doha indi Trampı deyil, Vaşinqtondakı siyasətçiləri və bürokratları düşünür, onların qarşısında təmizə çıxmağa çalışır. Eşkroftun firması məhz bu işdə onlara yardım edəcək. Çünki ötən həftə Tramp özü telefonla danışaraq Qətər əmirini Vaşinqtona dəvət etmişdi. Ancaq əmir bu dəvəti rədd etdi. Əgər Qətər rəhbərliyi Trampla görüşü rəd edib təmizə çıxmaq üçün amerikalı firma ilə anlaşma imzalayırsa, deməli, hədəfi başqadır. Doha Vaşinqtondakı liberal dairələr, bürokratiya və Senatdakı demokratların dəstəyini almağa çalışır. Onsuz da hökumət - xarici işlər və müdafiə nazirlikləri - Qətər məsələsində Trampla eyni mövqedə deyil. Belə çıxır ki, Qətər mövzusunda Tramp "daha müstəqil" mövqe sərgiləyir. Bu isə Dohadakıları ümidləndirir.

Digər tərəfdən, Qətər əleyhinə blokadaya qoşulanlar olduğu kimi, əksinə, Qətəri müdafiə edən Mərakeş, Pakistan kimi dövlətlər də var. Dünyanın 3-cü qaz ölkəsinin fantastik pulları var və yəqin ki, bir qədər də davam gətirəcəyi halda ərəb ölkələrinin bir qisminin dəstəyini alacaq. Üstəlik, Türkiyə, İran və Pakistan kimi ərəb olmayan müsəlman ölkələrinin. O cümlədən "Müsəlman Qardaşlar" Hərəkatı kimi müsəlman dünyasında geniş yayılmış bir hərəkatla müttəfiq olan Qətərin ərəb-müsəlman ictimai rəyində ciddi dəstəyi var. Hələlik körfəzdə Qətər sıxışdırılsa da, bu prosesin bir müddət uzanması əks təsir göstərə bilər. Görünən odur ki, Doha da bunu hesablayıb, o səbəbdən də Trampın görüşünə gedib "ağ bayraq" qaldırmağa tələsmir.

Qətər Avropa və ABŞ üçün strateji əhəmiyyətli ölkədir. Bu səbəbdən də münaqişə uzanacaqsa, dünya Səudiyyə koalisiyasına dəstək verməyə bilər. Qətər rəhbərliyi də bunu hesablayıb. Əgər yaxın günlərdə Qətər işğal olunmasa, ərəblər geri çəkilməyə məcbur qalacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 126 (6740) 13 iyun 2017

**Ötən həftənin sonundan Ermənistanda səfərdə olan ATƏT-in Minsk Qrupunun həmsədrləri iyunun 12-də işğal altındakı Dağlıq Qarabağa gəliblər. Azərbaycandakı narazılıqlara məhəl qoymayan həmsədrlər bu dəfə də işğal altındakı torpaqlarımıza İrəvan marşrutu ilə səfər ediblər. Bir sıra müşahidəçilər Minsk Qrupunun bu ənənəsini Azərbaycana saygısızlıq kimi izah etməklə yanaşı, Bakını işğal faktoru ilə barışdırmaq niyyəti kimi qiymətləndirirlər.**



# "Qarabağın Kremlə tabe etdirilməsi ermənilərin nəzərində Azərbaycana təslimçilikdən daha böyük fəlakətdir"

## ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Qarabağa növbəti turistik səfər etdiyi vaxt separatçıların rusiyameylli addımları diqqət çəkir; Milli Məclisin üzvü işğal olunmuş Azərbaycan əraziləri ilə bağlı işə salınan yeni təhlükəli plan haqda danışdı; **Zahid Oruc:** "Qarabağda Rusiyanın protektoratlığını təmin etmək və Xankəndini Kremlə tabe etdirmək ideyası yeni deyil"

Həmsədrlər sonuncu dəfə Xankəndi şəhərində bu ilin yazında, Ermənistandakı seçkilər ərəfəsində olmuşdular. Diqqətçəkən budur ki, diplomatların Qarabağa hər gəlişindən sonra bölgədə vəziyyət gərginləşir, ermənilər xüsusi aqressivlik nümayiş etdirməyə başlayırlar. Son həftə ərzində həm Ermənistan prezidenti, həm də Qarabağ separatçılarının başçısının Azərbaycan qoşunları ilə üzbəüz mövqelərə gəlişi, hərbçilərlə görüşü də suallar doğurdu. Qeyd edək ki, Qarabağ separatçılarının başçısı, özünü "Dağlıq Qarabağ respublikasının prezidenti" adlandıran Bako Saakyan həmsədrlərin səfərindən bir neçə gün əvvəl Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttinə gələrək işğalçı ordunun hərbçiləri ilə görüşdü, onlara "tapşırıqlar verdi". Bundan əvvəl isə Ermənistan prezidenti Serj Sərkisyanın Azərbaycanla sərhəddə, Tavuş vilayətinə gəlişindən və hərbçilərlə görüşündən bir gün sonra B.Saakyanın təmas xətti boyunca yerləşən mövqelərdəki hərbçilərə baş çəkməsi səbəbsiz ola bilməzdi. İlk baxışdan bu, Saakyanın Sərkisyanı yamsılaması kimi görünə bilər. Amma düşmənin olduqca məkrli və hiyləgər olduğunu nəzərə alsaq, işğalçının hansısa təxribatlara hazırlaşdığını, son zamanlarda aldığı zərbələrin əvəzini çıxmaq üçün hərəkətə keçə biləcəyini deməyə əsas verir. O da mümkündür ki, S.Sərkisyan və B.Saakyan son zamanlar hərbi texnika və canlı qüvvə sarıdan itkilər verən erməni ordusunda ruh aşılamaq üçün ön xəttə gəliblər. Hər halda, inanırıq ki, qəhrəman əsgər və zabitlərimiz düşmənin istənilən təxribatını yerindəcə dəf etməyə hazırdır. Bundan sonra isə B.Saakyan həmsədrlərin qarşısında "sülh nağılları" danışıb. Məlumata görə, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşikin iştirak etdiyi görüşdə Dağlıq Qarabağ münaqişəsi və təmas xəttindəki vəziyyət müzakirə edilib. Hər halda, həmsədrlərin bu dəfə də təcavüzə qon qoyulması zərurətini işğalçı və separatçının diqqətinə çatdırmadığı şübhə doğurmur. Bir həftə sonra isə diplomatlar Bakıya gəlib işğalçıların mövqeyini çatdırmaqla işlərini bitirəcəklər.

Lakin düşmənin son zamanlar növbəti təhlükəli planları işə salması Ermənistanın və Qarabağ separatçılarının sülh yolundan imtinasına şübhə yeri qoymur. Rusiyalı yazıçı Eduard Limonovun Qarabağa qeyri-qanuni səfəri və Azərbaycan ərazilərinin işğalını təqdir edən açıqlamalar verməsi, üstəlik, Dağlıq Qarabağdakı erməni məktəblərində Rusiya gerbinin, rus yazıçılarının portretlərinin asıldığını söyləməsi, ölkəsinə xitabən Qarabağı öz tərkibinə qatmağa çağırması növbəti təhlükəli planlardan xəbər verir. Hesab olunur ki, erməni separatçıları Abxaziya və Cənubi Osetiya separatçılarının getdiyi yolu təkrarlamaqla Azərbaycan ordusunun sarsıdıcı zərbələrindən xilas olmaq, torpaqların zəbtini uğurla başa çatdırmaq istəyirlər. Düzdür, Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır, amma Limonovun sayıqlamalarına reaksiya verilməməsi də şübhələr yaradır.

**Deputat, Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a dedi ki, Qarabağda Rusiyanın protektoratlığını təmin etmək və Xankəndini Kremlə tabe etdirmək ideyası yeni deyil:** "SSRİ-nin çöküşü ərəfəsində və Azərbaycan daxilində etnik separatizmin qızışdırıldığı illərdə rusiyalı diplomat Arkadi Volskinin rəhbərliyi altında yaradılan xüsusi idarəetmə komitəsinin və mərkəzi hakimiyyətin səlahiyyətlərinin mənimsənilərək ona verilməsini də yalnız Qorbaçov yenidənqurmasının gətirdiyi xaosun içərisində verilən spontan qərar saya bilmərik. Təəssüf ki, Eduard Limonov adlı rus millətçisi, hətta faşist təmayülünə uğrayan bir adamdan öncə Rusiya və İran arasında 19-cu əsrdən gedən vuruşların nəticəsində bütövlükdə Qafqaza nəzarətin bir imperiya üçün necə böyük əhəmiyyət kəsb etdiyini bilən hər kəs Azərbaycan ərazisində formalaşan xanlıqların üzərindən bölgəni əldə saxlamağın dönməz tərəfdarları olublar. Son illər Ukrayna ətrafında gedən döyüşlərin üzə çıxardığı şovinizmin tarixi kökləri məhz buradan qaynaqlanır. Keçmiş sovet məkanındakı konfliktlərin uzunömürlü olması millətçi dairələrə xalqların keçmişi barəsində özlərinə məxsus ideologiyalar və fəlsəfi təlimlər yaradaraq həmin patriotik mühitdə xal qazanmağa və millətlərarası nifaqı körükləməyə nail olurlar. Təsadüfi deyil ki, hətta ən qatı rus liberalları sırasında da ərazilər, sonsuz sərhədlər və "russkiy mir" məsələsində fərqli baxışların deyil, məhz istilaçı düşüncənin üstün gəldiyinin şahidi olursan. Fərqli platforma sahiblərinin sırasında Eduard Limonov kimilərin antitürk isterikası, yaxud ondan böyük Moskvaya üçüncü Roma və qədim Bizansın varisi kimi yanaşması Rusiyanın xarici siyasətinin əsas postulatlarına çevrilməsə də, dövlətlərarası münasibətlərin xarakterindən və geopolitikanın tezdəyişən mahiyyətindən asılı olaraq, millətçiləri təbliğat və informasiya savaşlarının önünə çıxarırlar". **Bəs Qarabağın Rusiyaya birləşdirilməsi mümkündürmü və orada yaşayan titullu xalqın-azərbaycanlıların iradəsindən kənarda, hazırkı işğal reallığının hökm sürdüyü dövrdə Kremlin strateqləri buna gedərmi? Rusiyanın təbəəliyi əleyhinə çıxış edən və onları öz milli dövlətçiliklərinə təhlükə sayan ermənilər, o cümlədən həmin ərazilərdə yaşayan yerli sakinlər belə ssenarini xilas yolu kimi qəbul edərmi? Z.Oruc:** "Dərin təhlillər aparsaq, qoyulan suallara tam və aydın cavablar ala bilərik. Məsələ burasındadır ki, Gürcüstanla 2008-ci ildəki məlum 5 günlük müharibə nəticəsində Cənubi Osetiya və Abxaziyanın müstəqilliyini elan etmək, daha sonra beynəlxalq birlik tərəfindən tanınmayan subyektləri özünə birləşdirmək ssenarisini Qarabağda təkrarlamaq o qədər də uğurlu resept sayıla bilməz. Çünki hər bir münaqişənin özünəməxsus tarixi səbəbləri, inkişaf dinamikası və əhatə dairəsi mövcuddur. Gürcüstan nümunəsindən fərqli olaraq, Qarabağda müharibənin rəsmi tərəfləri Ermənistan və Azərbaycandır. Deməli, Abxaziya və Cənubi Osetiyanın Moskvadan kənar aid olduğu siyasi suveren subyekt mövcud deyil. İkincisi, Moskvanın qanlı müharibələr baş verən əraziləri özünə birləşdirməklə "həll yolu" tapması qətiyyən uğurlu yol sayıla bilməz. Çünki belədə həmin hərbi toqquşmaların və destruktivizmin avtomatik rus məkanına keçməsinə şərait yaranır. Çoxmillətli bir dövlət üçün bunun nə demək olduğunu hamı yaxşı başa düşür. Çeçen milli azadlıq vuruşmalarını böyük hərbi vasitələr və itkilər hesabına həll edən, şimal hissəsini bununla da dini terror və separatçı qüvvələrdən xilas edən bir ölkə yeni sarsıntı məkanlarına sahib dura bilməz. Bir az da sadə dillə desək, Rusiya konfliktin çözümünü deyil, onun çətiri altına qatdığı və hətta bunu hüquqi qərarlarla möhkəmləndirdiyi halda, dava onun öz içərisinə keçmiş olur. Özü də erməni-azərbaycanlı ərazi münaqişəsi hadisəsi öz miqyasını aşaraq, bütün Rusiya boyunca yayılmağa başlayır". **Millət vəkili dedi ki, burada üçüncü mühüm arqumenti də tam obyektivlik naminə səsləndirmək lazımdır: "Bildiyiniz kimi, İrəvan və Xankəndində Rusiya əleyhinə böyük qüvvələr mövcuddur. Qarabağın limonovcasına Kremlə tabe etdirilməsi ermənilərin nəzərində Azərbaycana təslimçilikdən daha böyük fəlakətdir. Çünki onun bir daha geri qaytarılmasına və yaxud hərbi yolla ruslardan qoparılmasına şans qalmır. Lakin qeyd olunan arqumentlərin üzərinə son dərəcə mühüm birini də əlavə etsək, tam mənzərəni yaratmış olarıq. Putin Rusiyası Azərbaycanla münasibətləri hər vəchlə qoruyub saxlamağa çalışır. Çünki 90-cı illərdə Yeltsin dövründə hər iki xalqı düşmən səngərinə yuvarlayanlar bunun ilk növbədə rusların maraqlarına zərbə vurduğunu yaxşı bilirlər. Şimali Qafqazdakı sabitlik Qarabağdan birbaşa asılıdır. Ona görə də rus millətçilərinin yeni ərazilər hesabına genişlənmək planı daha çox özlərinə zərbə vuran "özünüməhvetmə" planıdır. Qafqazda əməkdaşlıq, yaxşı iqtisadi əlaqələr və strateji layihələr, mədəni mübadilələr və texnoloji yeniləşmənin fundamentində daha yaxşı inteqrasiya modeli qurmaq olar, nəinki Qarabağı Azərbaycandan qoparmaqla. Çünki bununla münaqişənin bütün dövrü ərzində arxa planda mövcud olmuş günahkar güc rəsmiləşmiş olur və avtomatik bütün dünyanın qəzəbini öz üstünə yönəldir. Qarabağ Krım ola bilməz. Rus əsgəri 19-cu əsrdə burada qan tökübsə, onda gərək həmin məntiqlə Berlini də İkinci Dünya müharibəsinin nəticəsinə görə Moskvaya birləşdirəsən".**

**Ermənistan və havadarları destruktiv fəaliyyətini davam etdirsə də, rəsmi Bakı danışıqları davam etdirməyə hazırdır, ancaq beynəlxalq prinsiplərə əməl etmək şərtilə. Yeri gəlmişkən, Limonovun adı artıq "qara siyahı"ya daxil edilib və onun da bir gün qolubağlı Kürdəxanı təcridxanasına, blogger Lapşinin qonşuluğuna köçməsi üçün hüquqi zəmin hazırlanır.**

**"Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövcud sənəd üzərində danışıqları davam etdiririk". APA-nın məlumatına görə, bu sözləri xarici işlər naziri Elmar Məmmədyarov Estoniyanın xarici işlər naziri Sven Mikserlə görüşdən sonra keçirilən mətbuat konfransında deyib. O bildirib ki, Sankt-Peterburq görüşündə və aprelin 29-da Moskva görüşündə də eyni sənəd üzərində danışıqlar aparılıb.** "Həmin sənədə əsasən münaqişənin həlli istiqamətdə irəliləməyin yollarını müzakirə etdik. Biz istəyirik ki, danışıqlar substantiv olsun. Azərbaycanın mövqeyi bəllidir. "Status-kvo"nu dəyişməyin vaxtı çatıb. Prezidentlər və həmsədrlər də deyir ki, "status-kvo" qəbuledilməzdir", - deyə nazir qeyd edib. Nazir "Ümid edirik ki, Dağlıq Qarabağ münaqişəsi BMT-nin qətnamələri əsasında həll olunacaq"-deyə, əlavə edib. "BMT qətnamələri Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edir. Bu sənədlərdə göstərilən suverenlik məsələsi bizim ortaq marağımızdır. Bütün münaqişələr beynəlxalq norma və prinsiplər əsasında həll olunmalı, BMT üzvü olan ölkələr bunlara əməl etməlidir, - E. Məmmədyarov vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 126 (6740) 13 iyun 2017



# Limonovun Qarabağa qanunsuz səfərinə sərt reaksiyalar

## "Yazıçının borcu siyasətə deyil, həqiqətə xidmət etməkdir..."

**Rusiyalı yazıçı, ekstremist-faşist mövqeyi ilə tanınan Eduard Limonovun bugünlərdə qondarma Qarabağ Respublikasına qanunsuz səfər etməsi Azərbaycanda ciddi etirazlarla qarşılanıb. Onun bu addımına görə ölkəmizə gəlişi də yasaqlanıb.**

Belə ki, Azərbaycanın xarici işlər nazirinin rəsmi nümayəndəsi Hikmət Hacıyev bu barədə danışaraq bildirib ki, Limonov məsələsinə baxılıb, onun Azərbaycanın işğal olunmuş torpaqlarına səfəri barədə xəbər təsdiqini tapıb: "O, öz adını yenilənmiş qara siyahıda tapa bilər", - deyə H. Hacıyev bildirib.

Bəs hadisə ilə bağlı yazıçılarımız nə düşünür?

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi, yazıçı Rəşad Məcid bildirib ki, əslində bu məsələyə münasibət bildirmək yazıçıların işi deyil:** "Rusiya Yazıçılar Birliyinin xeyli sayda üzvü var və onların içərisində bizə də rəğbəti olan rus yazıçıları az deyil. Həmçinin ermənilərə rəğbət bəsləyənləri var. Mənə elə gəlir ki, bu məsələyə daha çox diplomatik müstəvidə cavab verilməlidir. Xarici İşlər Nazirliyi buna oxşar situasiyalarda olduğu kimi, indi də öz mövqeyini bildirməlidir. Əgər o, hər hansı bir əsər yazarsa, buna yazıçılar münasibət bildirə bilərlər. Ümumilikdə isə bu, qeyd etdiyim kimi, Xarici İşlər Nazirliyinin işidir".

**AYB-nin mətbuat katibi Xəyal Rza söyləyib ki, yazıçıların çoxunun bu məsələdən xəbərləri yoxdur:** "Ona görə də münasibət bildirmirlər. Şəxsən mənim özümün xəbərim yox idi. Hesab edirəm ki, ölkənin xarici siyasət xətti elə bir səviyyədədir ki, adi fərdlərin xüsusi canfəşanlığına ehtiyac yoxdur. Dövlətimiz kifayət qədər yüksək səviyyədə xarici siyasət həyata keçirir. Ona görə də dəfələrlə görmüşük ki, bu cür şəxslər o ərazilərə getmələrinə peşman olub, sonradan Azərbaycandan üzr istəyiblər. Ona görə də düşünürəm ki, kimliyindən asılı olmayaraq, istər ədəbiyyatçı, istərsə də musiqiçi qanunsuz olaraq Azərbaycanın işğal altında olan ərazilərinə səfər edirsə, gec-tez bunun hesabını ağır şəkildə ödəyəcək. Düşünürəm ki, heç kim kifayət qədər inkişafda olan Azərbaycanı cılız Ermənistana dəyişməz. Bəzən bilməyərəkdən, bəzən də ermənipərəst olduqları üçün ora səfər edənlər bir gün peşman olacaqlar".

**Jurnalist-yazar Həmid Herisçi isə hesab edir ki, tarixən rus yazarları Qafqaza "Həcc ziyarəti" kimi baxıblar:** "Tarixi sənədlərə nəzər salarsaq, Puşkindən, Lermontovdan bəri bunu görmüş olarıq. Onlar üçün Qafqazda olub ucadan uçan qartallara baxmaq, dağ zirvələrinə tamaşa etmək önəmli olub. Təəssüf ki, ermənilər rusların bu cür şakəri ilə oynamağı bacarıblar. Yəni rus yazıçılarını dəvət edib, onlardan öz məqsədləri üçün istifadə ediblər. Biz azərbaycanlılar isə bunu etmirik. Şəxsən mən bu yaxınlarda məşhur Rusiya yazarı Aleksey Proxanovu, Quranı tərcümə edən Valeriya Poroxovanı Azərbaycana dəvət etmək istədim, ancaq dəstək verən olmadığı üçün təkbaşına gücüm çatmadı. Onu da qeyd edim ki, məşhur Rusiya yazıçısı, beşinci imperiya diskursunu rus mətbuatına gətirmiş Aleksey Proxonov malakandır və İsmayıllıya gəlib İvanovkanı görmək istəyirdi. 79 yaşlı yazıçının arzusunu qəlbində qoymaq, məncə, günahdır. Nəzərə alın ki, o, həm də Putinlə çox yaxın münasibətləri ilə tanınır. Eyni sözləri Poroxova da aid etmək olar. Heç nə, söylərimiz ertələndi və nəticə budur ki, Limonov getdi Dağlıq Qarabağa. Bunu təbii qəbul edirəm. Biz də gərək rusiyalı yazıçıları çağıraq və təbliğatımızı aparaq. Bu, azad rəqabətdir. Biz işi görə bilmirik, ancaq ermənilər görürlər. Məsələn, gürcülər artıq rus yazarlarını Gürcüstana dəvət etmək istəmirlər. Onlar bundan artıq yorulublar. Biz, görünür, Rusiyanın təkcə siyasi deyil, həm də ictimai xadimləri, xüsusən də rus ədəbiyyatını yaradan insanlarla yaxşı işləməliyik. Nəticədə rus ədəbiyyatında öz tərəfdarlarımız olmalıdır. Təəssüf ki, hələ ki bunu yarada bilmirik və başlayırıq qışqırmağa. Ermənilər isə bunu bacarırlar".

**Tənqidçi Əsəd Cahangir "Yeni Müsavat"a mövzu ilə əlaqədar aşağıdakıları bildirdi:** "Deməzdim ki, bu, Azərbaycan yazıçılarının günahıdır. Sadəcə olaraq, bu, Rusiyanın bir neçə əsrlik erməniperəst siyasətinin məlum Rusiya-Ermənistan münasibətlərinin ədəbiyyatdakı ifadəsidir. Əlbəttə ki, Rusiyanın da şair və yazıçılarının hamısı erməniperəst deyil. Rusiya çox böyük ölkədir və onun müxtəlif təmayüllü yazıçıları var. Orada da bir növ şovinizmə, avantüraya meylli, imperiyapərəst yazıçılar var. Yəni Rusiyanın Jirinovski tipli yazıçıları da var. Limonov da yuxarıda qeyd etdiyim yazıçılardandır və o, qalmaqallı şəxs kimi tanınır. Bu mənada onun belə bir səfər etməsi tamamilə gözlənilən idi. Belə məqamda hesab edirəm ki, Azərbaycan yazıçıları bu faktı mütəşəkkil şəkildə pisləməlidirlər. Bundan başqa təzyiq vasitəsi görmürəm. Bütövlükdə götürəndə isə ən qorxulusu o deyil ki, rus yazıçısı qeyri-qanuni olaraq Qarabağa gəlir. Qorxulu olan budur ki, artıq müəyyən Azərbaycan yazıçıları arasında erməniperəst mövqedə olanlar var. Bu, Azərbaycan bədii sözünün, ədəbiyyatının mənəvi məğlubiyyətidir. Hətta mən, artıq həmin yazıçının adını çəkməyi də rəva bilmirəm. Ancaq bu meyl getdikcə güclənə və gənclər arasında onun pozucu təsiri arta bilər. Hesab edirəm ki, biz yazıçılar ilk növbədə öz içərimizdə olan erməniperəstlərə qarşı mübarizə aparmalıyıq. Ona görə yox ki, biz azərbaycanlıyıq və hökmən öz mövqeyimizi müdafiə etməliyik. Sadəcə olaraq, Qarabağ problemində həqiqət Azərbaycanın tərəfində olduğu üçün həqiqət naminə erməniperəstlərə qarşı mübarizə aparmalıyıq. Yazıçının borcu siyasətə deyil, həqiqətə xidmət etməkdir. Qarabağ məsələsində isə həqiqət Azərbaycan xalqının tərəfindədir".

**Xatırladaq ki, Limonovun rəhbərlik etdiyi Milli-Bolşevik Partiyasının 5 dəfə qeydiyyata alınmasından imtina edilib. 2007-ci ildə partiya məhkəmə tərəfindən ekstremist təşkilat olaraq tanınıb və onun fəaliyyəti Rusiya ərazisində qadağan edilib. Partiya Rusiya ərazisində ilk qadağan edilmiş təşkilatdır.**

❑ **Əli RAİS**

# "Moskva ona görə Azərbaycanın yanında deyil ki..."

## "Rusiya hər bir sahədə Ermənistana daha çox üstünlük verməklə yanlış bir siyasət yürüdür" - ekspert

**Məşhur amerikalı politoloq və sosioloq, böyük geosiyasi strateq Zbiqnev Bjezinski ölümündən az öncə Güney Qafqazın gələcəyi kontekstində maraqlı fikirlər bildirib. Bjezinski Qarabağda müharibənin açılmaz olduğunu söyləyib. Həmçinin problemin həllini ləngidən tək ölkənin Rusiya olmasına diqqət yönəldib. Hətta Qarabağla bağlı Bakı və İrəvan birbaşa sülhə səbəb olacaq hansısa ortaq təşəbbüslə çıxış edərsə, Kremlin müqaviməti ilə üzləşəcəyi haqda xəbərdarlıq edib. Eyni zamanda Rusiyanın çökəcəyi təqdirdə Ermənistandakı rus hərbi bazaların ilk növbədə Ermənistanın özü üçün ciddi təhlükə kəsb edəcəyini söyləyib. Ümumiyyətlə, o, Gümrüdəki hərbi bazanın Ermənistanı Türkiyədən qorumaq məqsədi güdmədiyini deyib.**

Politoloq deyib ki, Cənubi Qafqazda Rusiyaya Ermənistan yox, əslində Azərbaycan lazımdır.

Əksər siyasi təhlilçilər də gerçəyin məhz bundan ibarət olduğunu bildirirlər. Qeyd edilir ki, Rusiyanın davası Azərbaycan üstündədir, ölkəmizi Avrasiya layihələrinə qoşmaq uğrundadır. Moskvada yaxşı anlayırlar ki, regionun açar ölkəsi nə Ermənistandır, nə də Gürcüstan. Bu, Azərbaycandır. Müşahidələr göstərir ki, Rusiya hətta Dağlıq Qarabağ məsələsində hər hansı irəliləyiş olmadan, ənənəvi təzyiq-təhdid yolu ilə Azərbaycanı Putin layihələrinə qoşmağa çalışır. Şimaldan ölkəmizə qarşı özünü göstərən son de-marşların arxasında həm də bu niyyətin durduğu barədə rəylər var.



Eyni zamanda ortaya belə bir sual da çıxır ki, Cənubi Qafqazda Rusiyaya Ermənistan yox, əslində Azərbaycan lazımdırsa, nədən Rusiya Azərbaycana Qarabağ məsələsində kömək etmir, Ermənistana dəstək verir?

Beynəlxalq məsələlər üzrə ekspert Elşən Mustafayev bildirdi ki, əslində doğrudan da strateji olaraq Cənubi Qafqazda Azərbaycan Rusiya üçün daha vacib dövlətdir. İstər coğrafi, istərsə də iqtisadi baxımdan bugünkü reallıqlarda Azərbaycan regionda mühüm əhəmiyyət daşıyan, dünya və Rusiya üçün vacib dövlətdir. Bunu nəzərə alaraq Azərbaycana qarşı münasibət məhz bu çıxarlarla nəticələnməlidir: "Rusiyaya güclü Azərbaycan yox, zəif Azərbaycan lazımdır. Çünki zəif dövlətə təsir etmək daha asandır. Reallıqda Rusiya hər bir sahədə Ermənistana daha çox üstünlük verməklə yanlış bir siyasət yürüdür. Hesab edirəm ki, bu, Rusiyanın yanlış olaraq yüz illərlə yürütdüyü imperiya siyasətindən imtina etmək istəməməyindən doğur. Tarixən erməni xalqı, sonradan isə Ermənistan dövləti könüllü olaraq hər mənada Rusiyanın xidmətində olub, Moskvanın təsiri altında qalmaqdan razı olublar. Rusiya onlardan bütün qara və çirkli oyunlarda istifadə edib, indi də istifadə edir. Əgər bu üsul keçən əsrin 90-cı illərinə qədər az çox nəticə verirdisə, sonradan bu siyasət Rusiyanın özünün əleyhinə işləməyə başladı. Bunu görməməzlikdən gələrək Rusiya hələ də Qarabağ məsələsində Ermənistanın mövqeyini müdafiə edir. Rusiya Qarabağ məsələsini həll edilmədən saxlamaqla onun üçün əhəmiyyət kəsb edən Azərbaycana və forpostu olan Ermənistana güclü təsir rıçaqını əldə saxlamaq istəyir".

Ekspert dedi ki, artıq dünyada mövcud olan bugünkü geosiyasi vəziyyətdə Rusiyanın vəziyyəti o haldadır ki, keçmişdə yürütdüyü siyasətinə yenidən baxmağa məcburdur. Böyük dünya siyasətində xırda siyasi gedişlər etmək və gələcəyi görməmək Rusiyanın özü üçün pis nəticə verə bilər.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 126 (6740) 13 iyun 2017

# "Leş ət" mafiyasını durdurmaq olmur

**Azərbaycanda illərdir ki, "leş ət" mafiyasının qarşısının alınması üçün addımlar atılır. Amma "leş ət" mafiyası kimi tanınan qruplaşmanın kökünü kəsmək mümkün olmur ki, olmur. Nədir "leş ət" mafiyasını bu qədər qüdrətli edən? Niyə hüquq-mühafizə orqanları "leş ət" mafiyasının qarşısında aciz görünürlər?**

## Murdar ətlər bu gün ölkə bazarlarında, super və hipermarketlərdə kolbasa və sosis şəklində satılmaqdadır

Bugünlərdə Xaçmazda "leş ət" mafiyasına qarşı əməliyyat baş tutdu. Dövlət Baytarlıq Nəzarəti Xidmətinin Xaçmaz Rayon Baytarlıq İdarəsi və Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin Karantin tədbirlərini təmin edən əlahiddə polis taboru əməkdaşlarının iştirakı ilə qida təhlükəsizliyinin qorunması, insanın həyat və sağlamlığına təhlükə törədən, mənşəyi məlum olmayan heyvandarlıq məhsullarının satışının qarşısını almaq məqsədilə tədbir görülüb.

İlin əvvəlindən bu günə qədər ölkənin dörd bir tərəfindən paytaxta daşınan murdar, mənşəyi bilinməyən ətləri daşıyan onlarla şəxs saxlanılıb. Ümumilikdə isə "leş ət" mafiyasını dayandırmaq mümkün olmur.

"Azad İstehlakçılar" İctimai Birliyinin sədri Eyyub Hüseynov "leş ət" mafiyasına qarşı çıxan tək-tük QHT rəhbərlərindəndir. O, dəfələrlə açıqlama verib və deyib ki, hüquq-mühafizə orqanlarının bu sahədə addımları yetərli deyil. İB sədri fikrini bazarlarda piştaxtalara kolbasa şəklində çıxan həmin məhsulların satışının təşkili ilə əsaslandırıb. Qeyd edib ki, belə ətlərin ticarəti ilə məşğul olanlarla yanaşı, həmin ətləri sifariş edənlər də məsuliyyətə cəlb olunmalıdır.

"Leş ət" mafiyasını ayaqda saxlayan səbəblərdən biri və ən başlıcası budur ki, onların satışa çıxardıqları murdar ətlər bu gün ölkə bazarlarında, super və hipermarketlərdə piştaxtalara kolbasa, sosis şəklində çıxmaqdadır.

Kənd Təsərrüfatı Nazirliyinin (KTN) açıqladığı rəsmi rəqəmlər də bunu təsdiq edir. Bu ilin təkcə 4 ayı ərzində dövriyyədən 70 tona yaxın murdar, mənşəyi bəlli olmayan ət çıxarılıb. Dövriyyədə tonlarla xəstə heyvanın əti var. Restoranlarda lülə kabab, basdırma şəklində süfrəyə çıxan belə ətlərin satılmasının qarşısını almaq müşkül məsələyə çevrilib. Əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasında hüquq-mühafizə orqanlarının səyləri də yetərli görünmür.

**Eyyub Hüseynov deyir ki, Mil-Muğan zonasından sonra Xaçmaz rayonu murdar ət satılan rayonlar arasında ilk yerlərdədir:** "Xaçmaz, Quba turistlərin, təsadüfi yol keçənlərin dayandığı bir zonadır. Nabran bölgəsində çoxsaylı restoranlar var. Düşünürəm ki, buna görə həmin rayonda tez-tez murdar ət satanların saxlanılması haqda məlumatlar eşidirik. Saatlı, Sabirabadda belə hallar çoxdur. Yaxşı haldır ki, Daxili İşlər Nazirliyi bu sahədə fəal iş aparır. Digər dövlət qurumları isə böyük passivlik nümayiş etdirirlər. Çünki maraqlar konflikti var".



**E.Hüseynov deyir ki, ölkədə istehlakçıların hüquqlarını qoruyan müstəqil dövlət qurumu olmayınca, belə hallar davam edəcək:** "Qəzetinizə müsahibəsində İqtisadiyyat Nazirliyinin rəsmisi deyir ki, 1 ay ərzində 400 adda məhsulu yoxlayıblar və nöqsan aşkar etməyiblər. Əlbəttə ki, İqtisadiyyat Nazirliyinin yoxlayıcıları piştaxtaya çıxan mallarda nöqsan aşkar edə bilməzlər. Çünki İqtisadiyyat Nazirliyinin strateji məqsədi iqtisadiyyatı dirçəltmək, biznes qurumlarını nə yolla olur-olsun himayə etməkdir. Nazirliyin tərkibində olan Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti hansısa bir biznes qurumunda, qurumun istehsal etdiyi məhsulda nöqsan tapsa belə, buna adekvat tədbir görə bilməz. Son zamanlar həmin xidmətə göndərdiyimiz bütün sorğulara "gedin, məhkəməyə müraciət edin" deyirlər. O boyda dövlət qurumunda sorğularımızı cavablandıra bilmirlər. Çünki maraqlar konflikti var. Mütləq şəkildə istehlakçı hüquqlarını qoruyan müstəqil dövlət qurumu olmalıdır. Əgər bunu etmək istəmirlərsə, istehlakçı hüquqlarının qorunması Yeni Zelandiyadakı kimi qeyri-hökumət təşkilatlarının öhdəliyinə verilməlidir. Orada QHT-lərin icazəsi olmadan 1 mal belə bazara girə bilməz".

Azərbaycanda kolbasa və sosis çox istehlak olunan məhsullardandır. Xüsusilə də ayaqüstü qəlyanaltı kimi bu ət məmulatlarına tələb var. Azərbaycanda kolbasa və sosis bazarının 80 faizindən artığı yerli şirkətlərin istehsalıdır. Amma yerli şirkətlərin heç biri istehsal etdikləri məhsulun xammallarının haradan alındığını açıqlamağa həvəsli deyillər. Ümumiyyətlə, il ərzində məhsul şəklində bazara çıxardıqları məhsulun ümumi çəkisini də göstərməkdən yayınırlar. Çünki xammal məsələsi yerli şirkətlərin yaralı yeridir. 9 manata sümüklü əti alıb ondan kolbasa istehsal etmək üçün ilk növbədə ət sümükdən təmizlənməlidir. 1 kiloqram ətin 200 qrama yaxın sümüyü çıxdaş olnandan sonra kolbasalıq ət - xammal istehsalçının sərəncamında olur. Bəs həmin ətdən hazırlanan kolbasa və sosisin qiyməti niyə 9 manatı aşmır?

**E.Hüseynov mövzu ilə bağlı açıqlamalarında dəfələrlə bildirib ki, əsas məsuliyyətə cəlb edilməli şəxslər həmin ətləri sifariş edənlərdir. AİB sədrinin dediklərindən sitat:** "Ən azı müəyyən edə bilərlər ki, tələbkar kimdir. 6-7 ton at-eşşək, murdar, ölmüş heyvanın ətini satandan soruşa bilərlər ki, ay bala, bu qədər at-eşşəyin ətini hara, kimə apararsan? Bunu niyə soruşmurlar? Soruşurlarsa, niyə tələbkarların cəzalandırılması haqda bir dənə olsun belə məlumat yoxdur? Olsaydı, yəqin ki, bu gün Azərbaycanda "leş mafiyası" fəaliyyətini bu qədər şəbəkələşdirib genişləndirə bilməzdi. Atın-eşşəyin cəmdəyi azı 100 kiloqram olur. Bazarda ətin kiloqramı 10-12 manatdır. "Leş ət" mafiyası ətin kiloqramını 5 manatdan satır. Hər 100 kiloqram ət üçün 500 manat qazanc var. Belə ətin satışına görə cərimə dəfələrlə azdır. 50-100 manat cərimə ödəyib, yenidən qayıdırlar öz işlərinə. Tələbkarlar böyük biznes sahibləridir. Qanunlarda boşluq var. İstehlakçı hüquqlarının qorunmasına dair qanun zəifdir. Qanun deyir ki, istehlakçını 100 manata qədər aldatmaq olar. Yəni it ətini quzu əti adı altında alıcıya sat, bunun üçün məsuliyyət yoxdur. 101 manat oldusa, məsuliyyət var. 10 ton murdar əti 3-5 kiloqram olmaq şərti ilə sata bilərsən. Qanunla bu yaramaz əmələ görə satıcının məsuliyyəti yoxdur. Cərimə də elədir ki, onu asanlıqla ödəyə bilirlər".

"Leş ət" mafiyasını ayaqda saxlayan əsas səbəblərdən biri qanunlardakı boşluqdursa, digər bir səbəb də məmur fəaliyyətsizliyidir.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Uzun və sağlam həyatın əsas sirri- az yemək



## Dietoloq: "Hər günümüzü pəhrizli etməliyik"

**Artıq çəki demək həm sağlamlıq, həm də görkəm baxımından problem deməkdir. Hazırda yay fəsli olduğundan əksər insanlar sağlam və gözəl görünmək üçün artıq çəkidən xilas olmağın yollarını axtarır. Onların əksəriyyəti dietoloq yanına getmədən, müxtəlif internet səhifələrindən və yaxud yaxınlarından eşitdikləri pəhriz proqramları ilə arıqlamağa çalışırlar. Bir çox hallarda bu cür pəhrizlərin heç bir nəticəsi olmur, əksinə, bəzən də insan sağlamlığında ciddi problemlərə yol açır.**

Son zamanlarda isə dünya alimləri belə qənaətə gəliblər ki, əslində pəhriz saxlamaqla deyil, daha az yemək lazımdır. Ümumiyyətlə, çox yeməyə can atmaq doğru deyil. Çox yeyərək qazandığımız çox qida orqanizm üçün lüzumsuz və səmərəsiz əlavə yükdür. Artıq qidalar isə onikibarmaq bağırsaqda çürüyərək zəhərli maddələrə parçalanır və bu da insanın sağlam, gümrah yaşamasına əngəl olur.

Gün ərzində hansı vaxtda yeməkdən imtina edilməsi haqda isə müxtəlif iddialar var. Bəzilləri axşam yeyilən yeməyin orqanizm üçün təhlükəli olduğunu, artıq çəki yaratdığını, bəziləri günorta yeyilən yeməyin bu cür fəsadlara yol açdığını, digərləri isə yalnız səhər yeməyinin ixtisara salmaqla gün ərzində iki dəfə qidalanmağı məsləhət görürlər. İddiaya görə, səhər qida qəbul etmək orqanizm üçün əlverişli deyil, səhər saatlarında axşamdan yeyilən qidaların həzmi davam edir. Günün ilk yarısında orqanizm özünü təmizləyir, buna görə də yoğun bağırsaq axşam qəbul olunmuş qidanı həzm etməyə təzə başladığı vaxt yeni qidanın qəbulu doğru deyil.

Bir sözlə, orqanizmə vaxtaşırı istirahət vermək lazımdır. Çünki bağırsağın divarları özündə 3 kiloqramdan 25 kiloqramadək şlak toplayıb saxlayır. Mümkün qədər orqanizmi zəhərləyən ət, yağ, yumurta, göbələk, çörək və paxlalı bitkiləri qidadan çıxartmaq, əvəzində isə tərəvəzlərdən istifadə etmək lazımdır.

**Dietoloq Leyla Zülfüqarova mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, az yemək qaydalarını düzgün yerinə yetirmək lazımdır:** "Sual olunur ki, "pəhriz, yoxsa az yemək?" Əslində pəhriz yeməyi sözünü hərfi mənada anlasaq bunun özü həyat tərzi deməkdir. Yəni insan yemək yeməlidir, amma diqqət etməlidir ki, nəyi və necə? Bu zaman dietologiyanın ən vacib hissələrindən olan orta dərəcə prinsipinə əsaslanmalıyıq. Buna əsasən yemək porsiyalarını orta dərəcədə qəbul etmək lazımdır. Bu nə çox, nə də heç yeməmək deyil. Bu səbəbdən pəhriz və az yemək sözü eyni anlayışdır. Ona görə də az yemək sözü bizə həm paradoks kimi görünə bilər, həm də düzgündür. Yəni dietologiya dozalı yemək deməkdir. Hər bir yeməyin, hətta sudan istifadənin belə dozası var. Yəni suyun dozasını da aşan zaman, yeni orta dərəcəni keçən zaman orqanizmdə problemlər yarana bilər.

Beləliklə, biz qidalanmalıyıq, amma çox yeməməli, orta səviyyəyə diqqət etməliyik. Hər günümüzü pəhrizli etməliyik. Pəhrizli olmaq sovet dönəmindən qalmış dieta anlayışı deyil. Pəhriz sağlam rasional qidalanmaq deməkdir. Yəni insan orqanizminə ehtiyac duyduğu bütün düzgün maddələri qəbul etməlidir".

**Dietoloq gün ərzində insan orqanizmi üçün gərəkli olan düzgün qidalanma ilə bağlı məsləhətlərini də bildirib:**

"Ümumiyyətlə, həmişə bildirirəm ki, qidalanmaq baxımından ölkə olaraq çox ciddi səhvlərimiz var. Yəni hər ölkənin, xalqın özünəməxsus bəslənməsi olmalıdır. Hər bir ölkədə kökəlmə müxtəlif səbəblərdən olur. Məsələn, bizdə hələ də qidalanma ilə bağlı çox ciddi səhvlər davam etdirilir, illərlə yaşadılır. Artıq bunlara bir "stop" demək lazımdır. Biz bu səhvləri gündəlik davam edərək yenə də möcüzə axtarırıq. Düşünürük ki, bu səhvi edərək hansısa möcüzəli formula tapacağıq və arıqlayacağıq. Amma ciddi səhv burasındadır ki, heç bir möcüzəli qida yoxdur. Sadəcə, qidaların bir-birləri ilə əlaqəsi var.

Biz hələ də şirin çaydan istifadə edən xalqıq. Bu dəhşətdir. Sanki səhər yeməyimizdə süfrəyə alternativ heç bir şey tapmayıb mütləq şirin çay, çörək, pendir, yaxşı halda hətta kərə yağı da qoyuruq. Bu, şablondur və qidalanmada ən ciddi səhvdir. Biz hələ də yağı yandıraraq qida bişiririk. Bir çoxları hətta düşünür ki, yeməkləri kərə yağında bişirməklə doğru edir. Hətta kərə yağından istifadə edilsə belə, yağ yanmamalıdır, sonradan yeməyə əlavə edilməlidir. Bizlərdə belə bir adət də var, kərə yağını əridib, balonlara yığırıq, daha sonra istifadə edirik. Yağı yandıraraq yeməkdə istifadə etmək çox ciddi səhvdir".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 126 (6740) 13 iyul 2017

# Xanımının təhsil haqqını ödəmək üçün soyğunçuluq edən şəxsə 7 il cəza verildi



**Soyğunçuluqda təqsirləndirilən şəxsə hökm oxunub. O, soyğunçuluğu həyat yoldaşının təhsil haqqını ödəmək üçün etdiyini deyirdi. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində soyğunçuluqda təqsirləndirilən Azər Təhməzovun cinayət işi üzrə məhkəmə başa çatıb.**

Hakim Rauf Əliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Məhkəmənin hökmü ilə A.Təhməzov 7 il müddətinə azadlıqdan məhrum edilib.

A.Təhməzov Sumqayıtda Firəngiz Hüseynovaya, Sevda İsmayılovaya, Gülnaz İsayevaya və Esmiralda Həsənovaya qarşı soyğunçuluq edib.

Təqsirləndirilən A.Təhməzov ona elan olunmuş ittihamla özünü təqsirli bilib.

O, ifadəsində maddi vəziyyətinin pis olduğunu, həyat yoldaşı Aytac Musayevanın oxuduğu Sumqayıt Dövlət Universitetinin illik təhsil haqqını ödəyə bilmədiyini, pulu ödəmək üçün cinayətə əl atdığını deyib.

A.Təhməzov istintaqdakı ifadəsində deyib ki, cinayəti törətməsinə səbəb arvadı və qayınanası olub. Onlar onu pul gətirməyə, cinayəti törətməyə vadar edib.

Amma A.Təhməzov məhkəmədəki ifadəsində bu dediklərini təkzib edib və təzyiqlərə məruz qalaraq belə bir ifadə verdiyini deyib.

**A.Təhməzovun arvadı Aytac Musayeva ifadəsində Sumqayıt Dövlət Universitetində təhsil aldığını, təqsirləndirilən şəxslə 2015-ci ildə tanış olduğunu göstərib:** "Azər mikroavtobuslarda pul yığan işləyirdi. Ötən ilin yanvar ayında toyumuz oldu. Toydan sonra müxtəlif ünvanlarda kirayə yaşadıq. Dolanışığımız zəif olduğuna görə daim valideynlərim köməklik edirdilər. Azərin mənim və valideynlərim barədə Bakı İstintaq Təcridxanasında yazdığı ərizə ilə tanış olduq. Orada yazılanlar hamısı yalandır. Nə mən, nə də valideynlərim Azəri cinayət törətməyə vadar etməmişik. Ona pulu ödəmədiyi təqdirdə atamın bizi ayıracağını deməmişik".

Qeyd edək ki, A.Təhməzova Cinayət Məcəlləsinin 180-cı (soyğunçuluq) maddəsi ilə ittiham verilib.

❑ İ.MURADOV



## Şair Faiq Balabəylinin qardaşı bıçaqlandı

**Tanınmış şair Faiq Balabəylinin qardaşı Rəfael Səfərov bıçaqlanıb. Bu haqda axar.az-a məlumat verən Faiq Balabəylinin sözlərinə görə, hadisə Cəlilabad rayonunun Sabirabad kəndində baş verib.**

Həmkəndlisi, 41 yaşlı Akif Kərəm oğlu Heydərov gecə 23:30 radələrində 43 yaşlı Rəfael Ağaş oğlu Səfərovu evindən çağıraraq, ondan çayxana işlətdiyinə və fermer təsərrüfatı olduğuna görə aylıq haqq tələb edib. R.Səfərov etiraz edəndə isə iki bıçaq zərbəsi endirib.

R.Səfərov gecə ilə Cəlilabad Mərkəzi Xəstəxanasına çatdırılıb. Dərhal əməliyyata qaldırılan R.Səfərovun dalağı götürülüb.

R.Səfərovun vəziyyəti hazırda ağır-stabildir.

F.Balabəylinin sözlərinə görə, gecə ilə həbs olunan A.Heydərov bir neçə dəfə məhkumluq həyatı yaşayıb.

Cəlilabad polisi faktla bağlı araşdırma aparır.

## Qətlə görə həbs edilən şəxs azadlığa buraxıldı - cinayətdə iştirakı olmayıbmış

**Bakıda 2011-ci ildə törədilən qətldə iştirak etməkdə şübhəli bilinərək axtarışda olan, 5 il sonra həbs edilən şəxs məhkəmə zalından azadlığa buraxılıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə təqsirli bilinən 1965-ci il təvəllüdlü Zakir İbayevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.

Hakim Eldar Mikayılovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən Zakir İbayevə ittiham olunduğu maddələr üzrə bəraət verilib və o, məhkəmə zalından azadlığa buraxılıb.

Zakir İbayev 2016-cı ilin noyabrında saxlanılıb. Qaradağ Rayon Polis İdarəsi 10-cu Polis Bölməsi tərəfindən Cinayət Məcəlləsinin üç maddəsi ilə axtarışda olan Zakir İbayev Daxili İşlər Nazirliyinin (DİN) Baş Cinayət Axtarış İdarəsi və Azərbaycan DİN-in Gürcüstan Respublikasındakı nümayəndəliyinin birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Gürcüstan dövlət sərhədini keçərkən saxlanılıb.

Onun barəsində həbs-qətimkan tədbiri seçilərkən müəyyən edilib.

Qeyd edək ki, Zakir İbayevin tanışı Arzuman Bəşirov 2011-ci il iyulun 14-də "Binə" ticarət mərkəzindəki valyutadəyişmə məntəqələrindən birinə silahlı basqın edərək oranın işçisi Əli Əliyevə odlu silahdan atəş açaraq qətlə yetirmiş və məntəqədən 16 min manat götürmüşdü.

Polis tərəfindən tutulan Arzuman Bəşirov ilkin dindirmə zamanı törətdiyi cinayəti etiraf edərkən qətli törətdiyi silahı tanışı Zakir İbayevdən aldığını demişdi. Bunun qarşılığında ona 3 min manat verdiyini söyləmişdi.

Bu ifadədən sonra Z.İbayev qətlin iştirakında şübhəli bilinərək axtarışa verilmişdi.

Z.İbayev Cinayət Məcəlləsinin 120-ci (qəsdən adam öldürmə), 181 (quldurluq) və 228-ci (qanunsuz silah gəzdirmə) maddəsi ilə axtarışda idi.

Məhkəmə istintaqı dövründə müəyyən olunub ki, Z.İbayev törədilən qətl hadisəsində iştirak etməyib.

❑ İ.MURADOV



## Leysan yağacaq, dolu düşəcək, çaylarda sululuq artacaq

**İyunun 13-də Bakı və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Səhər və gündüz bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim şimal küləyi əsəcək.**

ETSN-dən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 16-20° isti, gündüz 24-28° isti, Bakıda gecə 17-19° isti, gündüz 26-28° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 755 mm civə sütunundan 759 civə sütununadək yüksələcək. Nisbi rütubət 70-80 % təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Qərb küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22° isti, gündüz 29-34° isti, dağlarda gecə 8-13° isti, gündüz 17-22° isti olacağı gözlənilir.

ETSN hava şəraiti ilə bağlı xəbərdarlıq da edib. Xəbərdarlıqda bildirilir ki, iyunun 12-dən 13-ü gündüzədək bəzi rayonlarda hava şəraitinin qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi, çaylarda sululuğun artacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- ✳ **Diaqnozu bilinməyən ağır hallar;**
- ✳ **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- ✳ **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- ✳ **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- ✳ **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- ✳ **Sidikdə və ya spermada qan;**
- ✳ **Spermanın azalması və itməsi;**
- ✳ **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- ✳ **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- ✳ **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- ✳ **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- ✳ **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- ✳ **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- ✳ **Sesksual inamsızlıq, gərginlik və qorxu nevrozları.Yuxu pozğunluqları**
- ✳ **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

YENİ MÜSAVAT
N 126 (6740) 13 iyun 2017

# Bakının adrenalin həvəskarları...

## Və ya baykerlik, motosiklet tutqunları barədə bilmədiklərimiz; bu sevimli oyuncağa 60 min manat ödəyən də var



**Bir neçə gün bundan əvvəl Azərbaycanda Vəkillər Kollegiyasının üzvü Toğrul Mirzəzadə motosikletlə hərəkət edərkən yol qəzasında vəfat edib. Milli Televiziya və Radio Şurasının hüquq şöbəsinin əməkdaşı olan T.Mirzəzadə həm də motosiklet həvəskarı olub. Bu xəbər bizi Azərbaycanda və dünyada motosikletin bir nəqliyyat növü olaraq populyarlığı, habelə baykerliyin, motosiklet həvəskarlarının həyat tərzi, bu nəqliyyat növünün qiymətləri ilə bağlı bir gəzişmə aparmağa vadar etdi.**

Öncə qəzalar barədə. Statistikaya əsasən, gecə baş verən motosiklet qəzalarının sayı daha çoxdur. Qəzaların qarşısını almaq üçün müxtəlif vasitələr icad olunur. Aparılan araşdırmalar onu göstərir ki, bütün dünyada qəzaların qurbanları sırasında baykerlər kifayət qədərdir.

### Bakıda motosiklet sürücüləri üçün xüsusi yollar ayrılmır

Sosial şəbəkələrdə yayılan baykerlər üçün supergödəkcə isə belə qəzaların sayını azaltmaq üçün istifadə olunur. Belə ki, gödəkcə elektrondur və bayker hərəkət zamanı öz istiqamətinin sağa və ya sola olacağını gödəkcədə göstərə bilir. Beləliklə, bu, arxadan gələn avtomobil üçün işarə olur.

Son bir ayda yol-nəqliyyat qaydası pozulduğu üçün 3 motosikletçi dünyasını dəyişib. Qəzalardan biri Ziya Bünyadov prospekti, o biri Bakı-Hövsən beton yolunda, digəri isə Binəqədi istiqamətində baş verib. Motosiklet idarə edənlərə də dövlət nömrə nişanı verildiyi üçün digər sürücülərlə bərabər hüquqa malikdirlər. Bu səbəbdən də yol-nəqliyyat hərəkəti haqda qanuna əməl etməyə borcludurlar.

**Bu sayaq fikirlər isə zaman-zaman yol polisləri tərəfindən səsləndirilir. DYP rəsmisi Vaqif Əsədov mətbuata verdiyi açıqlamasında bildirib ki, təhlükəsizlik tədbirlərinə görə motosiklet sürücüləri üçün fərqli bir yolun ayrılması müzakirə predmeti deyil. Ümumiyyətlə, bu məsələ gündəmdə deyil. V.Əsədov bildirib ki, xaricdə özünü bayker adlandıran motosiklet sürücüləri üçün xüsusi yollar ayrılıb:** "Bu, xaricdəki qayda-qanunlardır. Bu haqda danışmaq istəmirəm. Azərbaycanda bayker məsələsi dəbə düşsün. Motosikl idarə edən sürücü buna alternativdir".

Motosikllə bağlı qəzalar adətən piyadalar və motobaykerin yolu düzgün seçməməsi səbəbindən olur. Problemin əsas səbəblərindən biri motosikletlər üçün yolların, yeni sürətlə sürüb adrenalin almaq üçün treklərin olmaması ilə bağlıdır. Baykerlər bəzən bunun üçün Gürcüstana üz tuturlar.

Arayış üçün deyək ki, motosikletlər - çəkisi 400 kiloqramdan artıq olmayan mexaniki nəqliyyat vasitəsidir. Motosikletlərin 5 növü olur: sport, çoper, klassik, enduro, skuter.

Bəziləri hesab edir ki, Azərbaycanda bu nəqliyyat növünün yayılması, inkişafı həm sərfəlidir, həm də Bakının küçələri üçün tam uyğundur. Bildiyimiz kimi, son bir neçə ildə paytaxt yollarında tıxac problemi yaranır. Bu cür şəraitlərdə motosiklet nəqliyyat vasitəsi kimi əvəzsizdir. Bir çox xarici ölkələrdə tıxac probleminin həlli yollarından biri də nəqliyyat vasitəsi kimi motosiklet və velosipedlərdən istifadə olunmasıdır. Ancaq bunların əksinə olaraq, ölkəmizdə motosikletin nəqliyyat vasitəsi olmaqdan da başqa problemləri var. Moto-idman demək olar ki, yox səviyyəsindədir. Həvəskarların hesabına motosikletçilər dəstəsi qalmaqdadır. Təşkilatçıların qeyd etdiyi kimi, bu sahədə yeni öyrənənlərin olmaması ilə yanaşı, buna şərait də yoxdur. İndiki halda Bakıda motosikletçilərin mövcud olması, sadəcə, bu sahəyə güclü marağı olan insanların fəaliyyətidir. Adi motosikletçilərdən fərqli olaraq baykerlər motosikletləri öz həyatlarının ayrılmaz hissəsi hesab edir, necə deyərlər, onunla nəfəs alırlar. Baykerlər xaraktercə də adi insanlardan fərqlənirlər. Baykerlər hərəkatı ilk dəfə Amerikada yaranıb və tədricən Avropaya da yayılmağa başlayıb. Bəzi vaxtlarda onlara hətta qeyri-ənənəvi mədəniyyət dəyərlərini özündə əks-etdirən zümrə kimi də yanaşıblar. Onların özlərinə məxsus qayda-qanunları var. Müxtəlif xaraktera malik baykerlərin özləri də bir neçə qrupa bölünürlər: aqressivlər, kinlilər və s.

### Motosiklet cəmi 5-6 saniyədə 200 km/saata qədər sürət yığır və...

Avtomobil, sadəcə, bir hərəkət vasitəsidir, motosiklet isə daha çox şeydir. Heç olmasa bir dəfə də olsa bu ikitəkərli nəqliyyat vasitəsinin sükanı arxasında oturmuş adamların hamısı belə düşünür. Motosiklet ilk növbədə, azadlığın bir hissəsidir. Motosiklet satıcısı Rauf Məsimov deyir ki, insanlar bəzən motosiklet sürməsələr də, onlara baxmaq, toxunmaq üçün salona gəlirlər. Bəzən olur ki, insanlar motosiklet qalereyasında oturub, sadəcə, onlara tamaşa edirlər. Kimsə balıq tutmağa gedir, kimsə ovla maraqlanır, bir başqaları da dəri gödəkcə, botinka, dəbilqə geyinib motosikletə oturur ki, bir-iki saat sürüb gəzsin, bu azadlığı tuta bilsin və iş gününün yorğunluğunu çıxarsın.

Amma yolda avtomobillə motosiklet yanaşı durduqda, dördtəkərli nəqliyyat vasitəsi sürücülərində tez-tez ötüşərək gücləri sınamaq həvəsi yaranır. Məhz buna görə avtomobili motosikletə dəyişmiş bir çox bakılılar dövri olaraq yollarda problemlərlə qarşılaşırlar.

Təcrübəli motosiklet sürücülərinin maraqlı müşahidələri də var. Belə ki, bir çox avtomobil həvəskarları düşünürlər ki, onlar motosikletlə yarışmağa qadirdirlər. Onlar belə bir faktı nəzərə almırlar ki, motosikletlərin əksəriyyəti cəmisi 5-6 saniyə ərzində 0-dan 200 km/saata qədər sürət yığa bilir. Bunu heç bir avtomobil edə bilməz.

### Baykerlər dövlət başçısından yardım istəyir, bəzənsə siyasi krizisə səbəb olurlar

Amma Azərbaycanda bu nəqliyyat növündən istifadə etmək istəyənlərin zaman-zaman problemləri yaranır. Məsələn, 2015-ci ildə bir qrup bayker prezident İlham Əliyevə müraciət etmişdi. Onlar Dövlət Yol Polisinin əməkdaşlarının fəaliyyətindən şikayətçi olmuşdular. Onlar bildirmişdilər ki, avtomobillə müqayisədə bir sıra üstünlüklərə malik olduğu üçün motosiklet onların xoşuna gəlir: "Lakin hansısa səbəbdən biz daima özümüzə qarşı yol polislərinin qərəzli münasibətini hiss edirik. Son zamanlar bu daha da artmağa başlayıb.

Biz hamımız «Yol hərəkəti haqqında» Qanunu öyrənmişik, sürücülük vəsiqələrimiz var, ölkəmizin qanuna tabe olan vətəndaşlarıyıq. Amma yol polisləri qanunvericiliyə zidd olaraq, heç bir səbəbsiz istənilən baykeri saxlaya bilirlər. Həmçinin onlar heç bir rəsmiləşdirmə sənədi olmadan "polisin tələbinə tabe olmamaq" adı ilə rəsmiləşdirmə aparacaqlarına dair şantaj edərək baykerlərin motosikletlərini əllərindən alır və cərimə meydançasına aparırlar.

Buna görə də, motosiklet sürücülərində şikayət edə bilmək üçün hər hansı rəsmi sənəd olmur".

Amma insafən deməliyik ki, baykerlərin davranışı təkcə Azərbaycanda yox, dünyada da zaman-zaman problemlərə səbəb olur. Bir çox hallarda isə bu, siyasi krizisə səbəb olur. Məsələn, 2015-ci ildə Rusiyda "gecə canavarları" klubunun baykerləri Avropaya motoyürüş ediblər. Rusiya prezidenti Putinin tərəfdarları olan qrup üzvlərinin bu səfəri İkinci Dünya müharibəsi nəticəsində əldə olunan qələbənin 70-ci ildönümünə həsr olunub.

Baykerlər 9 may qələbə gününü Almaniyanın paytaxtı Berlində qeyd ediblər. Motoyürüşün marşrutu isə Minsk, Brest, Brno, Bratislava, Vyana və Münhen şəhərlərindən keçir. Avropalı rəsmilər motoyürüşü təxribat adlandırıblar. Hətta bəziləri bu yürüşü Rusiyanın Avropaya təcavüzü hesab edib. Rusiya hökuməti Polşanın yürüşə əngəl olmaq niyyətini siyasi motivli addım adlandırıb.

### İnsanlar buna bir sərvət ödəyirlər

İndi isə keçək qiymətlərə. Bugünlərdə Türkiyə mediasında belə bir xəbər çıxdı ki, motosiklet həvəskarı olan türkiyəli aktyor Kıvanç Tatlıtuğ kolleksiyasına daha birini əlavə edib. 33 yaşlı aktyor özünə 20 min avro dəyərində "Triumph Bonneville Bobber Limited Edition" model motosiklet alıb.

Amma heç də hər kəs belə bahalı motosiklet almır. Məsələn, Çində istehsal olunan "Zontes" motosikletlərinin qiyməti 1600 manat, Amerika istehsalı olan "Harley-Devidson"ların qiyməti isə 60 min manata qədərdir.

"Zontes"ləri əsasən kuryerlik fəaliyyəti ilə məşğul olan gənclər alırlar. "Harley-Devidson" və "Piaggio Qrup Vespa"nın alıcıları isə motosiklləri ləzzətlə sürmək istəyənlərdir.

"Suzuki Moto" salonunun ən bahalı modeli "Suzuki Hayabusa"dır - 16700 manat. "Suzuki Hayabusa"nı əsasən adrenalin sevənlər alır. Şirkətin "Suzuki Street", "Inazuma", "GSR 750" və "Gladius" modelləri də populyardır.

Avtomobillər kimi, motosikllər də icbari və kasko sığorta olunur. İcbarı sığorta haqqı 50 manat, sığorta ödənişinin məbləği isə 50 min manatdır. Burda 5 min manat mülkiyyətə, 45 min manat isə sağlamlığa vurulan zərərə görə ödənilir: Motosikletlərin kasko sığorta haqqı isə 300 manatdan 1000 manata qədər dəyişir. Sığorta haqqı 4 % təşkil edir: Məsələn, 16700 manata olan "Suzuki Hayabusa"nı 668 manata sığortalamaq mümkündür.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
Son səhifə
N 126 (6740) 13 iyun 2017

# Çoxuşaqlılıq adamı çox yaşadır

Aparılan araşdırmalar nəticəsində məlum olub ki, ana olandan sonra qadınların ömrü uzanır. Araşdırma heç də 1-2 uşaqlı anaları əhatə etmir, söhbət dünyaya 6 və ya daha çox uşaq gətirmiş qadınlardan gedir. Yəni 6 uşaq sahibi olan ananın ömrü digər anaların ömründən daha çoxdur.



Avstraliyada aparılan araşdırmaya görə, 6 və ya da daha çox sayda uşağı olan qadınlar yüzdə 40% daha az ölüm riski daşıyır. Araşdırmanın rəhbəri olan Yeni Cənubi Uels Universiteti professoru Leon Simons bildirib ki, "qadınları 6-dan çox uşaq sahibi olun deyə təşviq etməsək də, görünən budur ki, çoxuşaqlı analar ən azı bir uşağı olan həmcinslərindən daha çox yaşayır".

ABŞ mətbuatında yer alan araşdırma isə 1988-ci ildən etibarən, 60 yaşdan böyük olan 1500 qadın və 1200 kişini əhatə edib. Gələnən nəticəyə görə, uşağı olmayan qadınlara nisbətən iki uşağı olan qadınlar yüzdə 17, üç uşağı olan qadınlar yüzdə 20 daha az ölüm riski daşıyır. Uşaq sayı artdıqca anaların ölüm riski azalmağa davam edir. Bu vəziyyətin səbəbinin hələ tam olaraq açıqlanmadığını bildirən Simons eyni tapıntılara başqa ölkələrdə də rast gəlindiyini bildirib.



## Davamlı saqqız çeynəmək olmaz, çünki...

Mütəxəssislər bildirirlər ki, saqqız ilk növbədə gicgah-çənə oynağını möhkəmləndirir. Belə ki, sərbəst qidalanma heç bir zaman saqqız qədər bu oynağı və onu təşkil edən sümük-əzələ sistemini hərəkətli edə bilməz. İkinci effekt isə onun ağız suyu vəzilərini aktivləşdirməsi ilə üzə çıxır. Bu, həzm prosesini sürətləndirməklə qida qalıqlarından ağız boşluğunu təmizləyir və sonradan əmələ gələ biləcək xəstəliklərin qarşısı beləcə alınmış olur. Ancaq kariyesi buraya daxil etmək olmaz. Belə ki, əmələ gəlməkdə olan karietik prosesi saqqızlar daha da aktivləşdirir.

Dişlərin ağlığı məsələsinin həllində saqqızların rol ala bilməyəcəyi isə birmənalı qəbul olunmuş qərardır. Həkimlərin gəldiyi ümumi qənaət belədir ki, saqqızların ağızı təravətləndirmək qədər xüsusi bir funksiyası yoxdur. Onu qətiyyən səhər yeməyindən öncə və gün ərzində davamlı çeynəmək olmaz. Mədənin selik ifraz edən vəzilərinin daima aktivləşməsini təmin edən saqqızlar bir çox xəstəliklərin, xüsusilə qastrit və xoranın ilk təhrikləyici vasitəsi ola bilər. Mədə-bağırsaq xəstəliklərindən əziyyət çəkənlər ümumiyyətlə ondan uzaq durmalıdırlar. Normal, sağlam orqanizmə malik insanlar isə yalnız qidadan sonra və maksimum 5-10 dəqiqə saqqız çeynəyə bilərlər.

# Direktor internetdən, yazışmalardan imtina edən şagirdə 100 dollar verəcək



**Vaşinqtonda özəl orta məktəbin direktoru Diana Smit şagirdlərə qəribə bir təklif verib. O deyib ki, əgər şagirdlər yay tətili boyunca telefondan, yazışmalardan, internetdən uzaq dayanarlarsa, onlara 100 dollar ödəyəcək. Bu barədə "The Washington Post" xəbər verib. Smit danışıb ki, o, əvvəlcə uşaqlara yay tətilini telefonsuz və hər hansı elektrik alətsiz keçirməyi təklif edib: "Mən müəllimlərə şagirdlərin nələrsə almasını, rüşvət verməsini sevmirəm. Amma bu dəfə şəxsi qaydalarımı pozacam. Mən əminəm ki, onlar bu məsələdə yardıma ehtiyac duyurlar".**

Qadın bildirib ki, məktəbə 2008-ci ildən rəhbərlik edir və vəziyyət ildən-ilə pisləşir. Uşaqlar gecə saatlarında bir-biri ilə yazışmaq üçün yuxusuz qalırlar, internetsiz bir gün belə keçirə bilmirlər. Direktor bu arzusunu valideynlərə də çatdırıb və sonuncular bundan olduqca məmnun qalıblar. Direktor eyni zamanda bildirib ki, həftə həftədə bir dəfə internetdən uzaq olan uşaqlara öz cibindən pul ödəməyə hazırdır.

Bu ilin fevralında isə amerikan müəllim şagirdlərini qeyri-adi qaydada salamlamağa görə şöhrət qazanmışdı. O, hər uşağa görə ayrıca salamlama üsulu fikirləşmişdi. Ona görə də hər dərsdən öncə onunla özəl və fərqli qaydada salamlaşmaq istəyən yüzlərlə şagird növbəyə düzülürdü.




**QOÇ** - Müəyyən təsirlərə məruz qalacağınız gözlənilir. Bunun qarşısını almaq üçün riskli sövdələşmələrdən, məsuliyyətli işlərdən uzaq durmalısınız. Günün ikinci yarısını gəzintilərə həsr edin.

**BUĞA** - Olduqca təzadlı gündür. Ünsiyyətdə olduğunuz adamlar sizi çaşdıra bilər. Gələcək perspektivlərinizi reallaşdırmaq üçün müzakirələrə başlayın. Ulduzlar sizi müdafiə etməkdədir.

**ƏKİZLƏR** - İştirakçısı olduğunuz proseslərə ciddi yanaşsanız, gün ərzində nəzərdə tutduğunuz perspektivlərin əksəriyyətinə qovuşacaqsınız. Sağlıq durumunuza fikir verin, əsəblərinizi qoruyun.

**XƏRÇƏNG** - Hələ də böyük planlarınızın reallaşmaması daxili gərginliyinizi artıra bilər. Buna baxmayaraq, özünüzdə təmkin tapıb Ulu Yaradana ümid bəsləyin. Uzaq səfərə çıxmaq olar.

**ŞİR** - Sürprizlər yolunuzu gözləyir. Bu səbəbdən də bir yerdə durmamalısınız. Evə bir qədər gec getsəniz də olar. Əsas məsələ planlarınızı həyata keçirməkdir. Dostlarınızla soyuqlaşmayın.

**QIZ** - Daxili sabitliyinizi qoruyun. Əks təqdirdə, müttəfiqləriniz sizdən uzaqlaşa bilər. Çalışın ki, hər bir davranışda səmimi və təbii olasınız. Yalan vədlər verməkdən uzaq olun.

**TƏRƏZİ** - Ulduzların düzümü maliyyə imkanlarınızın genişlənəcəyindən xəbər verir. Varlanmaq üçün xeyli şanslarınız var. Bu istiqamətdə hər bir mümkün variantdan yararlanın.

**ƏQRƏB** - Ünsiyyətdə olduğunuz bütün insanlarla davranışlarınızı səmimilik üzərində qurun. Yaxın günlərdə maddi problemlərinizin aradan qalxacağına nikbin yanaşın. İnsanlara inamla baxın.

**OXATAN** - Daha bir səmərəli gün yaşayacaqsınız. Astroloji göstəricilər hər hansı qanqaraçılığın mümkünlüyünü təkzib edir. Qərarlarınızda qəti olsanız, bəxtiniz də gətirəcək.

**OĞLAQ** - Səhər saatlarında müəyyən gərginliklə rastlaşsanız da, bunun neqativ nəticələri görünməyəcək. Təxminən saat 12-dən vəziyyətiniz düzələcək. Amma sağlamlığınızı da gözdən qoymayın.

**SUTÖKƏN** - İşlə bağlı müəyyən mübahisələriniz gözlənilsə də, bu, nəzərdə tutduğunuz planların reallaşmasına mane olmayacaq. Bu gün ailə-sevgi münasibətlərindəki passivliyi mütləq aradan qaldırın.

**BALIQLAR** - Etibar etdiyiniz bəzi şəxslər tərəfindən aldadıla bilərsiniz, əlaxüsus da yaxın ətrafınız tərəfindən. Belə məqamlarda soyuqqanlılıq nümayiş etdirməyiniz vacibdir. Bu gün qazanmaq ehtimalınız da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Sərnişin arvadı ilə dalaşdı, avtobusu aşırdı



**Çində bir sərnişin avtobus sürücüsünün əlindən maşının sükanını zorla alıb. Bu isə son nəticədə avtobusun aşması ilə nəticələnib. Lenta.ru saytının xəbərinə görə, sürücüyə mane olan kişini belə bir hərəkət etməyə arvadı ilə dalaşması vadar edib. İnsident ölkənin Quandun bölgəsində yaşanıb. Baş vermiş insidentlə bağlı videoyazı 10 iyunda YouTube kanalında yayılıb. Ondan öncə isə ölkənin CGTN xəbər kanalı bu hadisəni yayımlayıb.**

Qəza nəticəsində 8 nəfər zərər çəkib, qanunu pozan şəxs isə həbs olunub. "Daily Mail"in xəbərinə görə, ölkənin nəqliyyat departamentində də bu roliki təsdiqləyiblər. Orda dəqiqləşdiriblər ki, insident 7 iyunda, Dunquan və Quançjou şəhərlərini birləşdirən ərazidə baş verib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100